www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 iyul 2016-cı il Çərşənbə № 162 (6483) Qiyməti 60 qəpik

**Xəbər**

## Şirvanda silah zavodunda güclü partlayış

yazısı səh.3-də

**Gündəm**

### Prezident referendumun gününü təyin etdi




YAP artıq sentyabrın 26-da keçiriləcək ümumxalq səsverməsinə hazırlıqlara başladı; müxalifət nə etməlidir; beynəlxalq reaksiyanın olmamasının səbəbi

yazısı səh.4-də

### MTN generalının apelyasiya məhkəməsi başladı

yazısı səh.10-da

### Aprel döyüşlərinin siyasi nəticələri unudulur - təhlükə

yazısı səh.11-də

### Qarpız zəhərlənməsi zamanı nə edək-həkim məsləhəti

yazısı səh.14-də

### "Moody's"un iqtisadi vəziyyətə sıfır qiyməti: qərəz, yoxsa..

yazısı səh.13-də

### Məşhur siyasi ekspert Qərbi Azərbaycana görə ittiham etdi

yazısı səh.8-də

### ABŞ öz diplomatlarının ailələrini Türkiyədən niyə çıxarır - qorxunc şübhə...

yazısı səh.9-da

### Rövnəq Abdullayevə qarşı kampaniyanın arxasında kim dayanır?

yazısı səh.5-də

### Bankların birləşdirilməsi yenidən gündəmdə-yoxlamalar başladı

yazısı səh.12-də

### Ən effektli qrip dərmanı Azərbaycanda qadağan edildi

yazısı səh.13-də

### Azərbaycanda 235 nəfər hara itib?

yazısı səh.10-da

### Dollar kommersiya banklarında rekord vurur: 1.60

yazısı səh.5-də

## Düşmən ölkə post-aprel sindromundan çıxa bilmir

# ERMƏNİSTAN YENİ ÇAXNAŞMA ƏRƏFƏSİNDƏ - SƏRKİSYANIN RƏQİBLƏRİNİN MÖVQEYİ GÜCLƏNİR

Elxan Şahinoğlu

Türkiyə ilə sərhədlər məsələsinin gündəmə qayıtması işğalçı ölkədə siyasi həyəcanı, hakim rejimə qarşı isə şübhələri daha da artırıb; **erməni politoloq:** "Ermənistan cərrah stolu üzərindədir..."




yazısı səh.6-da

## Cahangir Hacıyev yəhudilərin də 13 milyon dollarını "yeyib"

İsrailin «BSD Crown» şirkəti Beynəlxalq Banka depozit kimi yerləşdirdiyi 13.6 milyon dolların cəmi 250 minini geri ala bilib; sabiq bankirin məhkəməsi ərəfəsi yeni qalmaqal üzə çıxdı

yazısı səh.12-də



*Yevda Abramov:*

### "Rusiyada prezidentlik müddəti 6 il oldu, nə oldu, dünya dağılmadı ki?"

yazısı səh.7-də



Allahşükür Paşazadə

### Şeyxdən Dini Komitəyə "səlahiyyətli mənəm" mesajı

yazısı səh.8-də



Elxan Şahinoğlu

### ABŞ "ya Güləni verin, ya nüvə başlıqlarını aparın" seçimi qarşısında qalarsa...

yazısı səh.9-da



## Zakir Həsənov cəbhə bölgəsindəki hərbi hissələrdə olub

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhə bölgəsində yerləşən hərbi hissələrdə olub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən virtualaz.org-a verilən məlumata görə, ön xətdə, düşmənlə üz-üzə səngərlərdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən müdafiə naziri müdafiənin dayanıqlığı, hərbi qulluqçuların döyüş və mənəvi- psixoloji hazırlığı ilə tanış olub, komanda müşahidə məntəqəsindən düşmənin mövqelərini izləyib.**

Əsgərlərlə nahar edən müdafiə naziri ön xətdə şəxsi heyətin sosial-məişət şəraitinin daima yaxşılaşdırılması ilə bağlı görülən işlərlə də maraqlanıb və müvafiq tapşırıqlar verib.

Aprel döyüşlərinin iştirakçıları, hazırda həqiqi hərbi xidmətdə olan hərbi qulluqçular müdafiə nazirinə müraciət edərək xidməti başa vurduqdan sonra da torpaqlarımız işğaldan tam azad olunanadək hərbi xidmət etmək arzusunda olduqlarını bildiriblər.

Şəxsi heyət vətənə, xalqa, dövlətə sədaqətlə xidmət etdiyini və Ali Baş Komandanın əmri ilə respublikamızın ərazi bütövlüyünün təmin olunması, işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda döyüşə hər an hazır olduğunu bildirib.

## Ərdoğan üç milyard avro istəyir

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Avropa İttifaqına üç milyard borcu xatırladıb. Oxu.az xəbər verir ki, o, bu barədə Almaniyanın ARD telekanalına verdiyi müsahibədə bildirib.**

Ərdoğan Ankaraya indiyə qədər mühacirlərin qəbul edilməsi, yerləşdirilməsi və təminatı üçün üç milyard avronu verməyən Aİ-dən gileylənib.

"Biz yalnız kiçik məbləğlər almışıq", - Ərdoğan bildirib.

O, həmçinin xatırladıb ki, Türkiyə üç milyon qaçqın qəbul edib və onlara 12 milyard avro xərcləyib.

"Biz öz vədimizi yerinə yetiririk. Bəs avropalılar?", - Ərdoğan sözlərinə əlavə edib.

## Restoran sahibini hədələyib pul tələb edən keçmiş məhkum tutuldu

**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları Xaçmazda əməliyyat keçirib. Virtualaz.org Daxili İşlər Nazirliyinə istinadən bildirir ki, keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 24-də Xaçmaz rayonunun Çarxı kəndindəki restoranda, oranın icarədarı Ramin Namazovu öldürəcəyi ilə hədələyib 400 manat pul tələb etmiş Xaçmaz şəhər sakini, əvvəllər məhkum olunmuş Hüseyn Mövlanov tutulub. Ondan 3,225 qram heroin götürülüb.**

## QİCS-ə yoluxanların yeni statistikası açıqlandı

**Səhiyyə Nazirliyi QİCS-lə Mübarizə Mərkəzinin məlumatına əsasən, bu ilin 6 ayı ərzində Azərbaycanda İİV-ə yoluxduğu yeni aşkar olunan insanların sayı 283 nəfər təşkil edib ki, onlardan 276-sı (97,5%) Azərbaycan vətəndaşı, 7-si (2,5%) isə əcnəbilərdir.**

APA-nın xəbərinə görə, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının bu ilin 6 ayı ərzində ölkə üzrə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizənin nəticələrinə dair məlumatında bildirilib ki, ümumilikdə Azərbaycanda ilk dəfə İİV infeksiyasının aşkar edildiyi 1987-ci ildən 1 iyul 2016-cı il tarixinədək Respublika QİCS-lə Mübarizə Mərkəzində İİV infeksiyası təsdiq olunmuş 5912 nəfər qeydiyyata götürülüb ki, onlardan 5714-ü (97%) Azərbaycan vətəndaşı, 190-ı (3%) isə əcnəbidir, İİV-ə yoluxmuş insanların 4406-sı (75%) kişi, 1506-sı (25%) qadındır.

İİV-ə yoluxması təsdiq olunmuş 5912 nəfərdən 2865-də İİV-ə yoluxma inyeksion narkotik istifadəsi (İNİ) nəticəsində baş verib, onlardan 2122 (74,1%) nəfər dispanser qeydiyyatındadır. İyulun 1-dək ART-yə cəlb olunmuş İİV-li xəstələrin ümumi sayı 3240 nəfər təşkil edib ki, onların da 1533 nəfəri İNİ səbəbilə olub. Cari ilin 6 ay ərzində isə ART-yə cəlb olunan 280 pasiyentdən 74 nəfərində İNİ aşkar edilib.

2016-cı ilin 6 ayı ərzində Daxili İşlər Nazirliyi tərəfindən Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə göndərilmiş şəxslərin sərxoşluq hallarının bütün növlərinin təyini məqsədilə aparılan tibbi müayinədən 11.715 nəfər keçib. Onlardan 478 nəfəri narkotik vasitələrin istifadəsinə görə müayinə olunub və 243 nəfər istifadəçi aşkar olunaraq müvafiq qeydiyyata götürülüb.

Cari ilin 6 ayı ərzində 1.321 nəfər stasionar müalicəyə qəbul olunub ki, onlardan 573 nəfəri "Alkoqol qəbulu nəticəsində psixi və davranış pozuntuları" (F10), 748 nəfəri "Opioidlərin qəbulu nəticəsində psixi və davranış pozuntuları"(F11) diaqnozu ilə müalicəyə qəbul edilib. Eyni zamanda, metadonla əvəzedici müalicə proqramı üzrə fəaliyyət göstərən iki məntəqədə proqram çərçivəsində 180 xəstə müalicə alır.

# Bakıda 1000-ə yaxın bina söküləcək, 30 min sakin köçürüləcək

**Nazirlər Kabinetinin 25 fevral 2016-cı il tarixli, 86 nömrəli qərarına uyğun olaraq, "Pilot layihə" çərçivəsində yararsız vəziyyətə düşmüş 1000-ə yaxın yaşayış binası sökülməli, 30 mindən artıq sakin köçürülməli, bir milyon kvadrat metrə yaxın yaşayış sahəsi tikilməlidir.**



Modern.az-ın xəbərinə görə, bunu komitənin sədri Abbas Ələsgərov Bakı şəhəri rayonlarının icra hakimiyyəti başçılarının müavinləri və baş memarları ilə görüşündə deyib.

Onun sözlərinə görə, Bakı şəhərinin Suraxanı, Nəsimi, Xətai, Nərimanov, Nizami, Yasamal, Səbayel, Pirallahı, Xəzər rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər barədə Nazirlər Kabinetinin 25 fevral 2016-cı il tarixli, 86 nömrəli qərar tikinti işlərinin aparılması sahəsində rayon icra hakimiyyətlərinin bu günə qədər mövcud olan səlahiyyətlərini və eyni zamanda məsuliyyətini artırıb. Bu layihə çərçivəsində yararsız vəziyyətə düşmüş 1000-ə yaxın yaşayış binası sökülməli, 30 mindən artıq sakin köçürülməli, bir milyon kvadrat metrə yaxın yaşayış sahəsi tikilməlidir.

Şəhərsalmada əsas göstəricinin 1 hektara düşən tikinti sıxlığı və yaşayış evləri üçün ayrılmış ərazinin tikinti əmsalı olduğunu deyən A.Ələsgərov qeyd edib ki, bu göstəricilər hazırda Nazirlər Kabinetinin 21 fevral 2014-cü il tarixli 51 nömrəli qərarı ilə təsdiq edilmiş "Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar"la tənzimlənir.

Sənədə bir sıra düzəlişlərin edilməli olduğunu nəzərə çatdıran komitə sədri bu qaydaların müvafiq tikinti norma və qaydalarından köçürüldüyünü və məhz sonuncu texniki-normativ sənəddəki bütün müddəaların toplu halında nəzərə alınmalı olduğunu vurğulayıb. Bu zaman hər bir obyekt üzrə ərazinin tikinti sıxlığı əmsalının 2,7 hesabı ilə götürülə bilməsini və bu barədə müvafiq qaydada müraciət olunduğunu iclas iştirakçılarına bildirib.

Eskiz layihələrdə bir neçə kobud faktlarla rastlaşdığını bildirən A.Ələsgərov deyib ki, bir kvartal üçün yerinə yetirilmiş planlaşdırma işlərində nəzərdə tutulmuş reqlamentlərin heç bir əsası olmadan 0,2-0,5 ha ərazilərə tətbiq edilməsi, belə kiçik ərazilərdə 3-4 16 mərtəbəli binanın yerləşdirilməsinə cəhd göstərilməsi kimi hallar mövcuddur.

## 2017-ci ilin dövlət büdcəsi layihəsi hazırlanıb

**"Maliyyə Nazirliyi 2017-ci ilin və qarşıdakı 3 ilin dövlət və icmal büdcələrin layihəsini hazırlayıb. Sənədlər Nazirlər Kabinetinə və Hesablama Palatasına göndərilib" deyə, qurumun mətbuat xidməti bildirir.**

Dövlət büdcəsinin parametrləri açıqlanmır. Qeyd edilir ki, 2017-ci ilin prioritetləri bunlardır:

- sosial siyasətin davam etdirilməsi, əhalinin yaşayış səviyyəsinin, qaçqın və məcburi köçkünlərin və bu qəbildən olan həssas qrupun sosial rifahının yaxşılaşdırılması;
- ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi;
- ölkə daxilində və xaricində icrasına başlanılmış və prioritet hesab edilən investisiya layihələrinin icrası;
- regionların sosial-iqtisadi inkişafının, qeyri-neft sektorunun stimullaşdırılması;
- aqrar sektora və sənayeyə dövlət qayğısının artırılması;
- sənaye və kənd habelə ölkə ərazisində və xaricdə keçirilməsi nəzərdə tutulan beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi.

Dövlətin borc və öhdəlikləri və dövlət proqramlarının həyata keçirilməsi üçün maliyyə təminatlarının yaradılmasına əhəmiyyət veriləcək.

2016-cı ildə dövlət büdcəsinin gəlirləri 16 mlrd. 822 mln. manat, xərcləri 18 mlrd. 495 min manat məbləğində təsdiq edilib.

❑ "Turan"

## Ordudakı cinayətlərin sayı əhəmiyyətli dərəcədə azalıb

**2016-cı ilin birinci yarısında hərbi prokurorluq orqanları tərəfindən bir çox ağır, mürəkkəb və çox epizodlu cinayət hadisələri aşkarlanaraq qeydə alınıb və bu qəbildən olan bir sıra işlərin istintaqı tamamlanıb.**

APA-nın məlumatına görə, bu barədə respublikanın hərbi prokuroru Xanlar Vəliyev dünən Hərbi Prokurorluqda keçirilən geniş kollegiya iclasında məlumat verib. X. Vəliyev qeyd edib ki, hesabat dövründə dövlət əmlakının külli miqdarda mənimsənilməsi ilə bağlı bir sıra cinayət işləri üzrə istintaq yekunlaşaraq günahkar şəxslər cinayət məsuliyyətinə cəlb edilib. Törədilmiş cinayətlər nəticəsində hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın 83,2 faizinin istintaq zamanı ödənilməsi təmin olunub.

X. Vəliyev bildirib ki, əvvəlki hesabat dövrü ilə müqayisədə 2016-cı ilin birinci yarısında qeydə alınmış bütövlükdə hərbi xidmət əleyhinə cinayətlər, o cümlədən konkret olaraq tabelik qaydası əleyhinə, hərbi xidmətdən yayınma, həmçinin hərbi hissəni və xidmət yerini özbaşına tərk etmə, odlu silah, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə, xüsusilə qəsdən adam öldürmə və özünü öldürmə həddinə çatdırma cinayətlərinin sayı əhəmiyyətli dərəcədə azalıb. Hərbi hissəni və ya xidmət yerini müharibə vaxtı və ya döyüş şəraitində özbaşına tərketmə faktları ümumiyyətlə törədilməyib. Qeydə alınmış cinayətlərin 99,6 faizi, o cümlədən bütün ağır və xüsusilə ağır cinayətlərin açılması təmin olunub.

bakcell

## "Smart Start" proqramına seçilən gənclər «Bakcell» şirkətində təcrübəyə başlayıblar

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkətinin təşkil etdiyi "Smart Start" təcrübə proqramının seçim turlarından uğurla keçən gənclər şirkətdə təcrübə keçməyə başlayıblar.**

Tələbə və məzunlar üçün nəzərdə tutulmuş 2 aylıq proqramın məqsədi karyerasında ilk addımlarını atmağa başlayan 18-25 yaş arası gəncləri Azərbaycanın ən böyük şirkətlərindən birində iş mühiti ilə tanış etmək, onların praktiki biliklərini artırmaq və işə hazırlıq bacarıqlarını inkişaf etdirməkdir.

Gənclər arasında "Smart Start" proqramına maraq bu il də böyük olub. "Bakcell"də təcrübə keçmək üçün 2000-ə yaxın gənc müraciət forması təqdim edib. Bütün seçim mərhələlərini müvəffəqiyyətlə keçən 33 nəfər isə təcrübə proqramında iştirak hüququ qazanıb.

İştirakçılar 2 ay müddətində insan resursları, marketinq, mühasibatlıq, pərakəndə satış və distribusiya, korporativ satış, informasiya texnologiyaları əməliyyatları, müştəri və müəssisə idarəetmə platformaları, xidmət əməliyyatları mərkəzi, proqram idarəetmə, müştəri xidmətləri strategiyası və onlayn xidmətlərin idarə edilməsi, müştəri xidmətləri şöbələrində çalışacaqlar.

Təcrübə müddətində gənclər şirkətin mütəxəssisləri arasından seçilən təcrübə rəhbərləri vasitəsilə müvafiq bilik və bacarıqlara yiyələnərək şirkətin ümumi strukturunu və iş prinsiplərini öyrənir, eyni zamanda karyera planlaşdırılması, biznes etikası, vaxtın səmərəli bölgüsü, effektiv kommunikasiya, özünü kəşfetmə, əməyin təhlükəsizliyi və ətraf mühit, sağlamlıq və digər mövzularda təşkil olunan təlimlərdə iştirak edirlər.

Qeyd edək ki, 2014 və 2015-ci illərdə "Smart Start" təcrübə proqramından 54 nəfər məzun olub, onların 12 nəfəri artıq «Bakcell» şirkətinin müxtəlif sahələrində işlə təmin olunub. Digər məzunlar isə yeni yaranan vakansiyalara potensial namizəddirlər.

Proqram iştirakçıları nəqliyyat və qida xərclərini qarşılamaq məqsədilə 2 ay müddətində "Bakcell"dən təqaüd alırlar. Proqramın sonunda gənclər proqramda iştirak haqqında sənədlə təmin olunurlar.

Bu il gənclərin proqram haqqında ətraflı məlumat alması və müraciət prosesini daha dinamik və asan etmək məqsədi ilə yeni sayt istifadəyə verilib. Sayt vasitəsi ilə təcrübə proqramına müraciət etmək, proqram haqqında daha geniş məlumatları, xəbərləri və məzunların təcrübə hekayələrini oxumaq, "Bakcell"in universitetlərdə keçirdiyi tədbirlərə qoşulmaq üçün qeydiyyatdan keçmək, əməkdaşlarımızın gənclərə verdiyi tövsiyələri ilə tanış olmaq mümkündür.

Kreativ gənclərin öz təkliflərini və layihə ideyalarını göndərə bilməsi üçün saytda xüsusi bölmə yaradılıb. Son statistakaya əsasən gənclər artıq bu saytdan aktiv şəkildə faydalanır və şirkətlə daha sıx əlaqəyə girirlər. Saytla aşağıda qeyd olunan keçiddən istifadə edərək tanış ola bilərsiniz: http://developtalent.«Bakcell».com/az

## Rusiya Türkiyə məhsullarına qoyduğu embarqonu ləğv edə bilər

**Türkiyənin iqtisadiyyat naziri Nihat Zeybekçi Rusiyaya embarqo tətbiq olunan ərzaq məhsullarının idxalına icazə verilməsi ilə bağlı müraciət edib.**

"APA-Economics"in "RİA Novosti" agentliyinə istinadən verdiyi xəbərə görə, Moskvada Türkiyənin iqtisadiyyat naziri Nihat Zeybekçi ilə Rusiyanın iqtisadi inkişaf naziri Aleksey Ulyukayev görüşüb.

Jurnalistlərin "Embarqo nə zaman aradan qaldırılacaq" sualına, N. Zeybekçi "Mən artıq bununla bağlı müraciət etdim", - deyə cavab verib.

Rusiyalı nazir isə görüşdən sonra bildirib ki, Türkiyənin kənd təsərrüfatı məhsullarına tətbiq olunan qadağa mərhələli şəkildə aradan qaldırılmalıdır: "Hər iki tərəf arasında sual doğuran məsələlər var və bunlar qarşılıqlı şəkildə həll edilməlidir".

YENİ MÜSAVAT
N 162 (6483) 27 iyul 2016

**İyulun 26-da saat 15:35 radələrində Müdafiə Sənayesi Nazirliyinin Şirvan şəhərindəki "Araz" zavodunda yanğın baş verib. İlkin olaraq musavat.com-a daxil olan məlumatda deyilirdi ki, güclü partlayış səsləri eşidilib, sonra isə yanğın başlayıb. Bir neçə saat sonra məlum olub ki, partlayış zavodun mərmi saxlanc anbarında baş verib. Məhz bu səbəbdən partlayan mərmilər yaxınlıqdakı ərazilərə səpələnib. Mərmi qəlpələrinin düşdüyü 2-3 kilometrlik radiusda lokal yanğınlar meydana gəlib.**

# Müdafiə Sənayesi Nazirliyinin Şirvandakı zavodunda güclü partlayış

## "Araz" zavodunda partlayışdan sonra mərmi qəlpələri ətrafa səpələnib, bir neçə nəfərin yaralandığı hadisə zamanı ölən olması təkzib edildi; nazir Yavər Camalov, səhiyyə naziri, fövqəladə hallar nazirinin müavinləri, baş prokurorun birinci müavini Rüstəm Usubov hadisə yerində oldular









Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürmə briqadaları dərhal hadisə yerinə cəlb ediliblər. Səhiyyə Nazirliyi də Şirvanda Müdafiə Sənayesi Nazirliyinə aid zavodda qeydə alınan partlayışla bağlı səhiyyə müəssisələrini səfərbər edib, o cümlədən Bakıdan əlavə 5 təcili yardım briqadası Şirvana göndərilib. Yaralanan şəxslərin daşınması üçün ətraf 4 rayonun mərkəzi xəstəxanalarının təcili tibbi yardım maşınları da cəlb olunub. Xəsarət alanlara tibbi yardımın göstərilməsi məsələsi səhiyyə naziri Oqtay Şirəliyevin şəxsi nəzarətinə götürülüb. Bildirilib ki, partlayışdan sonra Şirvan Mərkəzi Şəhər Xəstəxanasına yalnız 18 xəsarət almış şəxs (başqa mənbələr yaralıların sayının çox olduğunu bildirib) çatdırılıb. Xəsarət alanlara mütəxəssislər tərəfindən zəruri tibbi yardım göstərilib, iki nəfər tibbi yardım göstərildikdən sonra evə buraxılıb. Yaralananlar əsasən kişilərdir. Sosial şəbəkələrdə isə rayon sakinləri 1 nəfərin öldüyünü yazıblar.

Zavod yaşayış evlərindən aralıda yerləşdiyindən xüsusi panika yaranmayıb və bu səbəbdən də insanların evakuasiyasına ehtiyac olmayıb. FHN və hüquq-mühafizə orqanları yalnız əraziyə toplaşmaq istəyən mülki əhali və jurnalistləri təhlükəsizliklə bağlı ərazidən uzaqlaşdırıblar. Müdafiə sənayesi naziri Yavər Camalov, səhiyyə naziri Oqtay Şirəliyev, fövqəladə hallar nazirinin müavinləri Faiq Tağızadə, Etibar Mirzəyev, baş prokurorun birinci müavini Rüstəm Usubov hadisə yerindədir. Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalovun hazırda məzuniyyətdə olduğu bildirilir.

Musavat.com-un Şirvana ezam olunmuş reportyoru saat 18:30 radələrində xəbər verib ki, arabir mərmilər partlamaqda davam edir, bu isə yanğınsöndürmə işlərinin həyata keçirilməsinə maneçilik törədir. Əməkdaşımız bildirib ki, zavod təpələrin arasında yerləşir və hazırda burada partlayaraq ətrafa səpələnmiş mərmi qəlpələri təpələrdəki ot örtüyündə yanğın törədib.

**Saat 19 radələrində Müdafiə Sənayesi Nazirliyi yeni məlumat yayıb. Məlumatda bildirilib ki, hadisə nəticəsində ölən yoxdur, 11 nəfər yüngül formada xəsarət alıb. Xəsarət alanlara tibbi yardım göstərilir və hazırda həkim nəzarətindədirlər.** "Fasilələrlə yaranan partlayış səslərinin səbəbi utilizasiya olunması üçün Müdafiə Nazirliyi tərfindən sifariş olunan 1500 ton məmulatdan qalan 146 tonda yaranan qığılcımlardır. Müdafiə sənayesi naziri Yavər Camalov hadisə baş verdiyi andan etibarən Şirvan şəhərinə yola düşüb. Hazırda hadisə yerindədir. Hadisənin başvermə səbəbləri ilə bağlı məlumatlar araşdırmalardan sonra veriləcək" deyə, nazirlikdən bildirilib.

Musavat.com-un əməkdaşı Yavər Camalova yaxınlaşaraq baş vermiş hadisə barədə məlumat almaq istəyib, ancaq o, məlumat verməkdən imtina edib. Reportyorumuz başqa səlahiyyətli şəxslərdən öyrənib ki, hadisə ilə bağlı istintaq-araşdırma qrupu yaradılıb. Müxbirimiz deyib ki, yerli sakinlər yaralıların sayının elan edildiyindən qat-qat çox olduğunu bildirirlər. Partlayış zonasına yaxın olan evlərin sakinlərinin bir xeylisi şəhərin içərilərinə doğru çəkilib.

İş günün sonunda prezidenti İlham Əliyev "Araz" zavodunda baş vermiş partlayışla əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında sərəncam imzalayıb. Hüquq-mühafizə orqanları rəhbərlərinin də daxil olduğu komissiyaya baş nazirin birinci müavini Yaqub Eyyubov rəhbərlik edəcək.

Xatırladaq ki, ötən il iyul ayının 6-da Müdafiə Sənayesi Nazirliyinin Şirvanda yerləşən "Telemexanika" zavodunda 1 nəfərin ölümü, 11 nəfərin yaralanması ilə nəticələnən partlayış baş vermişdi.

Qeyd edək ki, "Araz" zavodu 1980-cı ildə SSRİ Rabitə Vasitələri Sənayesi Nazirliyinin Leninqradda yerləşən "Uzaq rabitə" Elmi-İstehsalat Birliyinin filialı kimi "Uzaq rabitə" adı altında fəaliyyət göstərib.

1993-cü ildə zavod "Ulduz" EİB-in tərkibində Azərbaycan Respublikası Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin tabeliyinə verilib. 1995-ci ildə zavod "Ulduz" EİB-in tərkibindən çıxarılıb və müstəqil müəssisə olaraq Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin tabeliyinə verilib.









2006-cı ildən "Araz" zavodu kimi Müdafiə Sənayesi Nazirliyinin tərkibində fəaliyyət göstərir.

❑ "Yenì Müsavat"

# Şeyxə və generala qarşı ifadə verməyən ilahiyyatçı: "Günahsızam..."

**İyulun 26-da Bakı Ağır Cinayətlər Məhkəməsində Qafqaz Müsəlmanları İdarəsinin sabiq sektor müdiri, ilahiyyatçı Elşən Mustafaoğlunun məhkəmə prosesi davam etdirilib.**

Musavat.com-un əldə etdiyi məlumata görə, hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxs sərbəst ifadə verib. O, özünü günahkar bilmədiyini və ona qarşı irəli sürülən ittihamların əsassız olduğunu bildirib.

İlahiyyatçının vəkili Əfqan Məmmədov bildirib ki, ittihamların heç biri mötəbər sübutlara söykənmir. Vəkil bildirib ki, ortada konkret fakt olmadığından E.Mustafaoğlunun günahsızlığını da sübut etmək çətindir. "Ortada onun günahını sübut edən konkret faktlar yoxdur. İttiham tərəfi ortaya konkret heç bir sübut qoymur. Buna görə onun günahsızlığını tam sübut etməyə çətinlik çəkirik. 1 il 6 ay ərzindəki istintaq zamanı onun göstərilən cinayət əməlini törətməsi barədə heç bir sübut əldə olunmayıb. Bu işin üstü açılarsa, biabırçılıq olacaq. Bu, boş xülyalarla hazırlanan cinayət işidir" deyə, vəkil bildirib.

Qapalı keçirilən məhkəmə prosesi avqustun 2-də davam etdiriləcək.

E.Mustafaoğlu bundan əvvəlki məhkəmə prosesində ləğv edilmiş MTN-də ondan Allahşükür Paşazadə və general Rövşən Əkbərovun əleyhinə ifadə almaq istədiklərini demişdi.

E.Mustafaoğlu 2006-2007-ci illərdə "İctimai" TV-də kanalında "Cümə söhbəti" verilişinin müəllifi və aparıcısı olub. 2007-ci ildə ANS TV-də "Allah Haqqı" verilişinin aparıcısı olub.

Xatırladaq ki, E.Mustafaoğlu 2014-cü ilin dekabr ayında həbs edilib. Onun barəsində Cinayət Məcəlləsinin 274-cü (Dövlətə xəyanət) maddəsi ilə cinayət işi açılıb.




❑ İlkin MURADOV

YENİ MÜSAVAT
N 162 (6483) 27 iyul 2016

**İyulun 25-də Konstitusiya Məhkəməsinin Plenumu prezident İlham Əliyevin Konstitusiya Məhkəməsinin rəyinin alınması üçün təqdim etdiyi "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklərin edilməsi haqqında" Referendum Aktının layihəsinə müsbət rəy verib.**

# Prezident referendumun gününü təyin etdi

## YAP artıq sentyabrın 26-da keçiriləcək ümumxalq səsverməsinə hazırlıqlara başladı; müxalifət nə etməlidir; beynəlxalq reaksiyanın olmamasının səbəbi

İyulun 26-da isə prezident İlham Əliyev Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsi ümumxalq səsverməsinə (referenduma) çıxarılacaq və kütləvi informasiya vasitələrində dərc ediləcək (layihə əlavə olunmaqla). Ümumxalq səsverməsi (referendum) 2016-cı il sentyabrın 26-na təyin edilib.

Mərkəzi Seçki Komissiyasına ümumxalq səsverməsinin (referendumun) göstərilən tarixdə keçirilməsini təmin etmək tapşırılıb. Nazirlər Kabineti ümumxalq səsverməsinin (referendumun) maliyyələşdirilməsi ilə əlaqədar zəruri tədbirləri həyata keçirməlidir.

Prezidentin sərəncamından dərhal sonra Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. MSK-nın mətbuat katibliyindən verilən xəbərə görə, MSK-nın katibi Arifə Muxtarova Azərbaycanda referendumun keçirilməsi üçün müvafiq normativ aktlara dəyişiklik edilməsi zərurəti yarandığını bildirib. İclasda referendumla bağlı 6 normativ xarakterli akta dəyişiklik müzakirəyə çıxarılıb və qəbul edilib.

Konstitusiya Məhkəməsinin Konstitusiyaya əlavə və dəyişikliklər haqqında Referendum Aktını dəstəkləyən qərarından dərhal sonra isə hakim Yeni Azərbaycan Partiyası (YAP) referendum keçirilməsinə hazırlıqlara başlayıb. Partiyanın ümumrespublika müşavirəsi keçirilib və məsələyə baxılıb. YAP mətbuat xidmətinin məlumatına görə, müşavirədə partiyanın rayon və şəhər təşkilatlarının rəhbərləri iştirak ediblər.

Xatırladaq ki, konstitusiyaya təklif edilən düzəlişlərə əsasən Azərbaycanda prezident hakimiyyətinin daha da gücləndirilməsini, dövlət başçısına parlamenti buraxmaq, birinci vitse-prezident və vitse-prezidentlər təyin etmək hüququ verilməsini nəzərdə tutur. Bundan başqa, prezidentin səlahiyyət müddəti 5 ildən 7 ilədək artırılır, o, növbədənkənar prezident seçkiləri təyin etmək, Milli Məclisi buraxmaq hüququ əldə edir. Baş nazirin səlahiyyətləri azaldılır və prezident hakimiyyəti idarə edə bilmədikdə onun səlahiyyətlərini baş nazir deyil, birinci vitse-prezident icra edir. Prezidentliyə namizəd olmaq üçün 35 yaş həddi aradan qaldırılır, deputatlığa namizədliyi irəli sürmək üçün yaş həddi 25-dən 18-ə endirilir.

Referendum aktının layihəsi 29 maddədən ibarətdir. Layihəyə görə, dövlət qulluqçuları insan hüquq və azadlıqlarına vurduqları ziyana görə yalnız mülki məsuliyyət daşıyacaqlar.



Müxalifət Referendum Aktını qəbul etmir və ölkədə monarxiyaya doğru əsaslı addım kimi dəyərləndirir. Maraqlıdır ki, konstitusiya dəyişikliyi ilə bağlı məsələyə hələ heç bir beynəlxalq reaksiya yoxdur. Ölkə müxalifəti isə hələ ki etiraz bəyanatlarından o tərəfə heç bir addım atmayıb.

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu hesab edir ki, ölkədə böyük miqyaslı təpki olanda, kütləvi etirazlar ortaya çıxanda hər hansı qanuna dəyişikliyə, referenduma beynəlxalq diqqət, rəy ifadə edilir. Miqyaslı müqaviməti, kütləvi etirazları isə təşkil eləyə biləcək mütəşəkkil qüvvə lazımdır:** "Ən azı son ilin təcrübəsi isə göstərdi ki, bu cür mütəşəkkil qüvvə yoxdur və az-çox mövcud olan müxalif qüvvələr sıradan çıxarılmaqda davam edir. Bu gün Azərbaycanda nə şəbəkələşmiş vətəndaş cəmiyyəti var, nə də birləşmiş güclü müxalif qüvvə yoxdur ki, cəmiyyəti səfərbər edib etirazını bildirsin. Cəmiyyət də heç zaman özü-özünə təşkilatlanıb etiraz eləyə bilməz. Odur ki, referendumla irəli sürülən bütün təkliflər artıq hakimiyyətin iradəsindən asılıdır. Hakimiyyət necə istəyəcəksə proses də o cür keçəcək və dəyişikliklər rəsmiləşdiriləcək. Yüksək ehtimalla deyə bilərəm ki, vətəndaşların mütləq əksəriyyəti heç bilməyəcəklər ki, ölkədə referendum keçirilir".

**Müxalifət partiyalarından referendumla bağlı birləşmək, birgə müqavimət təşkil eləmək çağırışlarına gəlincə, ekspert qeyd etdi ki, birləşmək müqavimətin ortaya qoyulmasına bir qədər çox təsir eləyə bilər:** "Amma güman eləmirəm ki, artıq hətta birləşmək də həlledici təsir eləsin. O ki, qaldı birləşəcəklərmi, bunu çətindir söyləmək. Şəxsən mən düşünmürəm ki, bu alınacaq".

**Ə.Oruclu onu da dedi ki, referendumun gününün təyinindən hələ bir gün keçir:** "Yəqin ki, yaxın zamanlarda yəqin ki, müəyyən beynəlxalq reaksiyalar olacaq. Reaksiyaların müsbət və ya mənfi olacağını isə indidən dəqiq söyləmək çətindir. İstənilən halda o reaksiyalar elə də əhəmiyyətli olmayacaq. Ona görə ki, ölkədə gedən proseslərə, qanunlara dəyişikliklərə yalnız ölkədaxili müqavimət, etirazlar ciddi olduqda beynəlxalq reaksiya da ciddi olur. Ölkənin özünün daxilində ciddi reaksiya yoxdursa, beynəlxalq reaksiya da ciddi olmayacaq və olan reaksiya növbətçi reaksiya xarakteri daşıyacaq".

**Ə.Oruclu konstitusiya dəyişikliyi ilə bağlı Qərblə və ya hansısa beynəlxalq güclərlə iqtidarın arasında hansısa razılaşma olduğuna inanmır:** "İnanmıram ki, belə bir anlaşma var. Sadəcə, hakimiyyət bütün amilləri nəzərə alaraq, ana qanunda dəyişikliklər aparmaq istəyir ki, öz mövqelərini daha da möhkəmləndirsin. Hakimiyyət bilir ki, buna beynəlxalq səviyyədə ciddi etirazlar olmayacaq. Bu dəyişiklikləri həyata keçirmək üçün niyə məhz indiki vaxtın seçilməsinə gəlincə, indi bir az dolaşıq dövrdür və geosiyasi proseslər çox sürətlə inkişaf edir. Bölgədə, ölkədə, hakimiyyətdaxili qruplar arasında vəziyyət getdikcə çətinləşir. Görünür ki, bunların hamısını nəzərdən keçirərək belə qərara gəldilər ki, məhz indiki şəraitdə hakimiyyəti möhkəmləndirməyə ehtiyac var. Bu, möhkəmləndirməkdir, ya zəifləməyə xidmət edəcək, bunu isə zaman göstərəcək. Mən hesab eləmirəm ki, bu, hakimiyyəti möhkəmləndirməkdir".

❑ **Etibar SEYİDAĞA**

# Azərbaycanda referendumların tarixi statistikası

## 7 ildən bir dəyişən konstitusiyamıza indiyədək hansı dəyişikliklər edilib

**"Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktı layihəsinə Konstitusiya Məhkəməsi müsbət rəy verdi. Rəyə görə, təklif olunan dəyişikliklər xalq hakimiyyəti və dövlətin əsaslarına dair Azərbaycan Konstitusiyasının ümumi müddəalarına ziddiyyət yaratmadığından və 155-ci maddənin tələblərinə uyğun olduğundan ümumxalq səsverməsinə (referenduma) çıxarıla bilər. Prezidentin sərəncamı ilə referendum sentyabrın 26-da keçiriləcək.**

Bu, 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyasının qəbulundan sonra keçən müddətdə üçüncü referendum olacaq.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il sentyabrın 12-də keçirilən ümumxalq referendumu ilə qəbul edilib. Bundan 7 il sonra-24 avqust 2002-ci ildə konstitusiyaya əlavə və dəyişikliklər üçün referendum keçirilib. 2002-ci ildə keçirilən referenduma ölkə müxalifətinin etirazı olub. Müxalifət partiyaları referenduma qarşı etiraz aksiyaları da keçirmişdilər. Buna baxmayaraq, hakimiyyət konstitusiyaya etmək istədiyi əlavə və dəyişiklikləri 24 avqustda referendum keçirməklə reallaşdırmışdı. Konstitusiyanın müəyyən maddələrinə edilmiş əlavə və dəyişikliklərə əsasən vətəndaşlara ombudsmana, Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ təmin edilmiş, həmçinin Milli Məclisin səlahiyyətləri dəqiqləşdirilərək ona ombudsmanın seçilməsi, Apelyasiya Məhkəməsinə hakimlərin təyin olunması hüququ verilmişdi. Bu dəyişikliklərin bir qrupu məhkəmə hakimiyyətinin rolunun artırılması, prokurorluğa qanunvericilik təşəbbüsü hüququnun verilməsi ilə bağlı idi. Müxalifətin daha çox etiraz etdiyi dəyişiklik isə proporsional seçki sisteminin ləğv edilməsi, parlament və bələdiyyə seçkilərinin yalnız majoritar seçki sistemi ilə keçirilməsinin qəbulu idi. 24 avqust referendumuna qədər ölkənin ikinci şəxsi Milli Məclisin sədri idi. Həmin referendumda konstitusiyada edilən dəyişikliyə əsasən, bu status baş nazirə keçib. Müxalifət o zaman bu dəyişikliyə də qarşı çıxış edirdi.

Növbəti referendum 2009-cu il martın 18-də keçirilib. Bu referendumun isə özəlliyi ondan ibarət olub ki, konstitusiyada eyni şəxsin iki dəfədən artıq Azərbaycan prezidenti seçilməsinə qoyulan qadağa ləğv edilib. Ölkə müxalifəti məhz bu qadağanın ləğvinə qarşı çıxmış və referendumun qarşısının alınması üçün bir neçə anti-referendum təşviqat qrupları yaratmışdı. Buna baxmayaraq, referenduma mane ola bilməmişdilər.

Müxalifət bəyan etmişdi ki, əhalinin yalnız 15 faizi referendumda iştirak edib. MSK isə əhalinin 80 faizə yaxınının referendumda iştirak etdiyini elan etmişdi.




**Mərkəzi Seçki Komissiyasının keçmiş üzvü, Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hakimiyyət 7 ildən bir konstitusiyaya istədiyi dəyişiklikləri referendum adı ilə həyata keçirir. Sanki özləri üçün qəbul ediblər ki, hər 7 ildən bir konstitusiyada dəyişiklik edilməlidir:** "Keçirilən referendumlara xalqın qatılmadığı da hər dəfə bəlli olub. Bununla belə, ənənəvi saxtakarlıq yolu ilə referendumu keçirib istədikləri rəqəmləri elan etdilər. Konstitusiyaya edilən dəyişikliklərə və əlavələrə gəldikdə, ən mürtəce hal 2002-ci ildə proporsional seçki sisteminin ləğvi, 2009-cu ildə isə eyni şəxsin iki dəfədən artıq prezident seçilməsinə konstitusiya qadağasının ləğvi olub. Əslində həmin referendumlar məhz bu dəyişikliklərin və əlavələrin həyata keçirilməsinə xidmət edib. İndi keçirməyi planlaşdırdıqları referenduma da təklif oluna konstitusiya dəyişiklikləri ana qanunun mürtəceləşməsinə, demokratiyadan daha da uzaq düşməyə xidmət edir".

❑ **Etibar SEYİDAĞA**

**Ölkənin nüfuzlu təhsil ocaqlarından olan Qafqaz Universitetinin bağlanmasından heç bir həftə də ötməyib. İlk baxışdan, adi haldır - universitetin təsisçisi Azərbaycan Təhsil Nazirliyini təhsil müəssisəsinin bağlanması ilə əlaqədar xəbərdar edib. Təhsil Nazirliyi isə həmin müraciətlə ölkədə müəyyən edilmiş qaydalara uyğun olaraq davranmalıdır. Lakin hər bir universitetin məxsusi yeri olan Azərbaycanda insanlar bu ali təhsil ocaqlarına xüsusi diqqətlə yanaşırlar, onlarda baş verən istənilən dəyişiklik cəmiyyətdə geniş müzakirələrə səbəb olur.**

# Rövnəq Abdullayevə qarşı kampaniyanın arxasında kim dayanır?



Bu mənada Qafqaz Universiteti xüsusi əhəmiyyət kəsb edir, belə ki, həmin təhsil ocağını çoxdan bəri nurçuların lideri Fətullah Gülənin adı ilə bağlayırdılar. Türkiyədə baş tutmamış və əsas təşkilatçısının Gülənin elan edildiyi çevriliş cəhdindən sonra isə bu məsələ daha böyük diqqətə səbəb oldu.

Təbii ki, Bakı bu cür güclü və tərəqqipərvər universiteti itirmək istəmirdi, heç xalq da buna razı olmazdı. Həmin təhsil ocağının məzunları ölkədə və onun hüdudlarından kənarda yüksək qiymətləndirilirdi. Və Qafqaz Universiteti Bakı Ali Neft Məktəbinin tabeliyinə verildi. Bu təhsil müəssisəsi isə birbaşa Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə bağlıdır. SOCAR-ın vitse-prezidenti Xaliq Məmmədovun bildirdiyinə görə, universitetin tələbələri təhsillərini əvvəlki qaydada davam etdirəcəklər, professor-müəllim heyəti isə öz işində qalacaq. Təhsil Nazirliyində isə öz növbəsində, xüsusi işçi qrupu yaradılır ki, həmin qurum bu universitetin tələbələrini digər təhsil müəssisələrinə köçürəcək.

Göründüyü kimi, bütün məsələlər həllini tapıb, lakin söz-söhbət səngimək bilmir. Bu məsələdə yalnız ictimaiyyət deyil, hər bir atılan addıma siyasi don geydirən bəzi KİV də fəallıq nümayiş etdirir. Uzun-uzadı mülahizələrində onlar SOCAR-ın prezidenti Rövnəq Abdullayevə ittihamlara qədər gəlib çıxır və dindən uzaq olan bu adamı dinçi sekta ilə bağlamağa çalışırlar - guya ki, o, şəxsən Azərbaycanda nurçu təhsil ocaqlarının nəinki qorunub saxlanmasında, hətta daha da inkişaf etdirilməsində maraqlıdır. Bu mülahizələrə səbəb kimi iki il öncə baş vermiş digər hadisə əsas göstərilir.

2014-cü ilin iyununda Türkiyə hökuməti nurçulara qarşı geniş kampaniyaya başladı. Bu kampaniya ölkədən kənarda yerləşən təhsil ocaqlarını da əhatə etdi və Bakı birincilər arasında Ankaranın təşəbbüsünə qoşuldu. Azərbaycanda da gülənçi (nurçu) məktəblərin geniş şəbəkəsi fəaliyyət göstərirdi və qeyd etmək lazımdır ki, onlar əhali arasında digər pullu məktəblərlə müqayisədə böyük nüfuza malik idilər. Bu məktəbləri itirmək olmazdı, onlar həqiqətən də savadlı şagirdlər yetişdirirdi ki, bunlar beynəlxalq olimpiadalarda belə mükafatlara layiq görülürdülər. O zaman hökumətin qərarı ilə bütün bu məktəblər SOCAR-ın tabeliyinə verildi.

Həmin qərardan sonra da cəmiyyətdə SOCAR-ın nurçulara bağlılığı barədə şayiələr yayılmağa başlamışdı - hətta bu cərəyana yaxın olan bəzi konkret rəhbərlərin adları da çəkilirdi. Sözsüz ki, bacarıqlı əllərlə yayılan həmin şayiələr elə qurulurdu ki, hamıya aydın olsun: bu piramidanın zirvəsində məhz R.Abdullayev dayanır və o öz növbəsində, ölkənin siyasi rəhbərliyinə çıxır. Absurd iddiadır, fəqət SOCAR-ın və Abdullayevin tənqidçiləri öz proqramlarını məhz belə absurd iddiaların üzərində qururlar. Buna görə də həmin şayiələr uzun sürə bilməzdi - SOCAR da Azərbaycan hökuməti kimi, ümumilikdə hər zaman, o cümlədən də gülənçilərə qarşı Ankaranı dəstəkləyib. Yeri gəlmişkən, bunu qardaş ölkənin rəhbərləri və şəxsən prezident Ərdoğan dəfələrlə bəyan ediblər.

Lakin görünür, hökuməti gözü götürməyənlər keçmişdən dərs almaq niyyətində deyillər. Ötən iki il bunu bariz şəkildə nümayiş etdirir. Qafqaz Universiteti SOCAR-a tabe edilən kimi köhnə mövzular yada düşdü və buyurun, bu da Azərbaycan şirkətinin idxal nurçuluğa bağlılığının daha bir sübutu. Yoxsa bu sektanın təhsil müəssisələrini ona niyə tapşırsınlar ki? Və heç cür anlamaq istəmirlər ki, bütün bunlar tamam başqa mətləblərə görə edilir.

Bir daha təkrarlamaq lazımdır ki, nurçuların məktəbləri və Qafqaz bu günə kimi ölkənin ən güclü təhsil müəssisələrindən hesab olunurlar, hökumət güclü tədris bazasını itirmək arzusunda deyil - rəhbərliyi dəyişmək və qarşısına yeni vəzifələr qoymaq tamamilə kifayətdir.

Nəzərə alsaq ki, bu təhsil müəssisələrində yaxşı tədris güclü maddi bazaya əsaslanır, onlar Təhsil Nazirliyinin deyil, SOCAR-ın tabeliyinə verilib. Nazirliyin bu təhsil müəssisələrinə özünün digər adi orta və ali məktəblərinə ayırdığı vəsaitdən çox vəsait ayırmağa imkanı yoxdur və bu heç düzgün də deyil ki, birini digərindən fərqləndirəsən. Məhz buna görə də onlar neft şirkətinin tabeliyinə verilir və yeri gəlmişkən, bu şirkət özü də hadisələrin belə gedişindən məmnun deyil və özünə yad olan təhsil şəbəkəsindən canını qurtarmaqdan heç də imtina etməzdi. Axı bu neft şirkətidir və onun işi neft hasil etməkdir, məktəblərlə məşğul olmaq deyil. Amma nə edəsən ki, hökumət ən mürəkkəb məsələlərin həllini ona həvalə edir və şirkət də bunların öhdəsindən layiqincə gəlir. Və Rövnəq Abdullayev Qafqaz Universitetini SOCAR-ın balansına götürəndə nurçulara olan məhəbbətini deyil, universiteti qoruyub saxlamaq, yaxşı mütəxəssislər yetişdirmək və həmin təhsil ocağını nurçulardan təmizləmək məqsədini güdür.

Bəli, SOCAR-ın qarşısına vacib vəzifə qoyulub - nurçuların burada qoyub getdikləri tədris bazasını qoruyub saxlamaq, inkişaf etdirmək və bununla birlikdə nurçu elementlərdən təmizləmək. Bu, yaxın illərdə şirkətin həll etməli olduğu növbəti vacib sosial tapşırıqdır. Çox güman ki, elə məhz bu amil - dövlətin ən güclü kommersiya strukturunun eyni zamanda ən əhəmiyyətli sosial problemləri - təhsildən tutmuş idmana qədər - həll etməsi çoxlarına rahatlıq vermir. Yalnız müxalifət sıralarında deyil, həmçinin gizli rəqiblərin - məmurların sırasında. Biz hələ xarici düşmənləri demirik. Axı SOCAR-ın nüfuzuna xələl gətirmək eyni zamanda həm də Azərbaycan hökumətinin nüfuzuna təsir etməkdir. Düşmənlərimiz isə az deyil.

❑ **Virtualaz.org**

# Dollar kommersiya banklarında rekord vurur: 1.60

## Ekspertlərin fikrincə, yaxın aylarda manatın sabitləşməsi gözlənilən deyil



**Milli valyuta olan manat yenidən dəyər itirməkdədir. Son bir ayda manatın kursu yenidən aşağı düşür. Azərbaycan Mərkəzi Bankının (AMB) manatın iyulun 26-na olan rəsmi məzənnəsi də bunu göstərir. ABŞ-ın milli valyutası olan dolların məzənnəsi iyul ayının 25-i ilə müqayisədə 0,2 faiz artaraq 1,5755 manat təşkil edib. "Turan" isə yazır ki, kommersiya banklarında dollar 1.60-a satılır.**

**Ekspert Vüqar Bayramov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, manatın indiki durumu çoxdan proqnozlaşdırılan kimidir: "O zaman milli valyutanın məzənnəsi möhkəmlənirdi. Hətta vətəndaşlar hansı valyutada yığım aparması ilə bağlı müəyyən müzakirələr edirdilər. Praktik olaraq may ayının sonundan və iyun ayının əvvəlindən başlayaraq manatın dollara nisbətən məzənnəsində azalmalar müşahidə olundu. Bu azalmalar davam etməkdədir. Apardığımız monitorinqlər göstərir ki, dollara tələb yüksəkdir. Dollara tələbin yüksək olması həm də idxalın yüksək olması ilə bağlıdır. Xarici ölkələrə turist axını ilə bağlı xarici valyutaya tələb yüksəlir. Eyni zamanda dollarla yığımlarda da artımlar müşahidə olunmaqdadır. Mərkəzi Bankın bir sıra kommersiya banklarına təqdim etdiyi mərkəzləşmiş kredit resursları çox qısa zamanda milli valyutadan dollara çevrilib. Bütün bunlar məhz dolların məzənnəsinin yüksəlməsinə gətirib çıxarır. Dolların manata nisbətən məzənnəsinin növbəti dövrlərdə də artacağı güman olunur. Çünki tələb yüksəkdir. Bu da birmənalı şəkildə qiymət artımına, dolların məzənnəsinin artmasına gətirib çıxarır. O baxımdan, növbəti dövrdə də dolların möhkəmlənəcəyini gözləyirik. Dolların hansı səviyyəyə qədər möhkəmlənə biləcəyi də maraqlıdır. Hələlik güman olunur ki, Mərkəzi Bank hərraclar vasitəsilə dolların möhkəmlənməsi prosesinin davam etdirilməsinə çalışacaq. Növbəti dövrlərdə manatın məzənnəsi birbaşa Mərkəzi Bankın müdaxiləsindən və Mərkəzi Bankın bazara daxil olmasından asılı olacaq. Eyni zamanda Mərkəzi Bank bazara daxil olsa belə, mütəmadi daxil olmur. Əksinə, Dövlət Neft Fondunun aktiv şəkildə dollar təklif etməsi müşahidə olunur. Nəzərə almaq lazımdır ki, Dövlət Neft Fondunun da dollar təklifi ilə olan satışında da bir məhdudiyyət var. Neft Fondu büdcə qarşısında öhdəliklərini yerinə yetirdikdən sonra auksiona çıxmayacaq. Bu da dollar təklifinin azalmasına gətirib çıxara bilər. Hələlik onu proqnozlaşdırmaq mümkündür ki, dolların möhkəmlənməsi ilə bağlı iqtisadi zəmin var, yüksəkdir. Bu da növbəti dövrlərdə dolların məzənnəsinin artmasına gətirib çıxaracaq. Amma hansısa səviyyədə bahalaşma birbaşa Mərkəzi Bankın istəyindən asılı olacaq".

**Ekspert Natiq Cəfərli musavat.com-a açıqlamasında qeyd edib ki, manatın birbaşa asılılığı neftdəndir:** "Manat neftin qiymətindən birbaşa asılıdır. Bəlkə də dünyada neftin qiymətindən ən çox asılı olan valyutalardan birincisi manatdır. ABŞ-ın Federal Ehtiyat Sisteminin, FES-in toplantısının da manata təsiri olacaq. FES faiz artırsa, bizə qonşu ölkələrdə milli valyutaların düşməsi sürətlənəcək. Bu da Azərbaycan iqtisadiyyatına birbaşa təsir göstərəcək. Digər səbəb isə dünya üzrə dolların bahalaşması gözlənilir. Əgər FES qərar versə, dollar indeksi bahalaşacaq. Dünyada dolların bahalaşması isə xammalların ucuzlaşmasına səbəb olur. Ən azından, xammalların bahalaşmasının qarşısını ala biləcək əsas amillərdən birinə çevrilir. O deməkdir ki, FES faizi artırsa, neftin qiymətində indiki səviyyələr hətta arzolunan səviyyələr ola bilər. Bundan daha aşağı səviyyələri görə bilərik ki, indiki səviyyə daha yaxşı səviyyə kimi qiymətləndirilə bilər. Bu iki amil bildi ki, Azərbaycan manatına da təsir göstərəcək. Azərbaycanın gəlirləri azalıb. İstehlak etdikləri məhsulların həcmi və dəyəri gəlirlərin səviyyəsindən xeyli çoxdur. Ona görə də məcburən Azərbaycan manatına basqılar artacaq. Məzənnənin dəyişməsi qaçılmaz olacaq".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 162 (6483) 27 iyul 2016

# Düşmən ölkə post-aprel sindromundan çıxa bilmir

**Ermənistanda polis binasının silahlı qrup tərəfindən ələ keçirilməsindən sonra yaranan kritik vəziyyət davam edir. Bir polis zabitinin qətlı yetirilməsi, bir neçəsinin isə yaralanmasına gətirən bu olay ölkədaxilli situasiyanın qəliz və həssas, hakimiyyətə etimadın nə dərəcədə kövrək olduğunu üzə çıxarıb.**




# Ermənistan yeni çaxnaşma ərəfəsində - Sərkisyan əleyhdarlarının mövqeyi güclənir

## Türkiyə ilə sərhədlər məsələsinin gündəmə qayıtması işğalçı ölkədə siyasi həyəcanı, hakim rejimə qarşı isə şübhələri daha da artırıb; **erməni politoloq:** "Ermənistan cərrah stolu üzərindədir..."

Son məlumatlara görə, silahlı müxalifətçilər girov götürdükləri polis əməkdaşlarını azad eləsələr də, binaya nəzarəti əldə saxlayırlar və hakimiyyətə ünvanlı əsas tələblərini dəyişməyiblər.

Yada salaq ki, qonşu ölkədə davam edən dramatik olaylar iyunun 22-də radikal mövqeli "Təsis parlamenti"nin nümayəndəsi Jirayr Səfilyan həbsindın az sonra başlayıb. Rəsmi məlumata görə, Səfilyan qanunsuz silah saxlamaq və gəzdirmək ittihamı ilə tutulub. O da qeyd olunurdu ki, o, bir qrup şəxslə birlikdə bir sıra dövlət qurumlarını, o cümlədən poçt-rabitə binalarını, həmçinin İrəvan teleqülləsini ələ keçirməyi planlaşdırırmış.

Bu barədə yazan "Joxovurd" qəzeti onu da xatırladır ki, Jirayr Səfilyan həbs olunmamışdan öncə teleqüllə ciddi nəzarət altına alınıb, onun və daha bir neçə nəfərin həbsindən sonra teleqülləyə nəzarət edənlər adi iş rejiminə qayıdıbmışlar. Lakin 17 iyulda bir qrup silahlının Jirayr Səfilyana azadlıq tələbi ilə polis alayını ələ keçirməsi və vəziyyətin gərginləşməsindən sonra hüquq-mühafizə orqanları teleqülləni yenidən ciddi nəzarət altına alıblar (virtualaz.org).

Silahlıların əsas şərti Səfilyanın azad edilməsi və Qarabağ məsələsində heç bir güzəştə gedilməməsidir *(Az öncə Sərkisyanın istefa tələbi də səslənmişdi)*. Bununla bağlı Sərkisyan hökumətinə faktiki surətdə ultimatum verilib. Serj Sərkisyan isə bina boşaldılandan və terrorçular təslim olandan sonra Səfilyanı Prezident Aparatına görüşə dəvət edəcəyinə söz verib.

***

Analitiklərə görə, Sərkisyanın qanunsuz silahlı qrupla bunca dözümlü, loyal davranmasının iki əsas səbəb ola bilər: **1.** Bu qrupa cəmiyyətdə dəstəyin ciddi olması üzündən radikal üsullarla vəziyyəti daha da gərginləşdirməmək istəyi. **2.** Qarabağ və güzəştlər məsələsində erməni toplumundakı radikal ovqatı dünyaya, həmsədr ölkələrə nümayiş etdirib kompromislərdən yayınmaq.

**"İllər ərzində Ermənistanda narazılıq yığılmışdı və bu narazılıq nəhayətdə partlayışa gətirdi".** Bu sözləri İrəvanda keçirdiyi mətbuat konfransında **politoloq Arutyun Mesropyan** polis alayı binasının tutulma səbəblərindən danışarkən söyləyib. Onun sözlərinə görə, idarəçilik nöqteyi-nəzərdən silahlı qrupun üzvləri əsl işi artıq görüblər. **"Onlar faktiki şəkildə irinli yaranın üstünü açıblar. Biz indi cərrah stolu üstündəyik. Bu proses isə xüsusi qavrayış tələb edir"** - erməni ekspert əlavə edib.

Bu arada Türkiyə-Ermənistan sərhədlərinin açılması məsələsinin təzədən gündəmə gəlməsi işğalçı ölkədəki mürəkkəb daxili ictimai-siyasi duruma yeni çalarlar qatıb, cəmiyyətdə narazılığı, hakim Sərkisyan rejiminə qarşı isə inamsızlığı artırıb. Paralel surətdə radikal müxalifətin, hərbi partiyanın əlinə hakim qüvvəni ittiham eləmək üçün əlavə kozır keçib.

Yada salaq ki, Türkiyədəki "Hürriyet" qəzetinin köşə yazarı, xarici işlər naziri Mövlud Çavuşoğlunu son Bakı səfərində müşayiət eləmiş Fatih Çekirge səfər zamanı aparılan danışıqlarda Türkiyə-Ermənistan sərhədinin açılması məsələsinin də müzakirə edilidyini bildirib. Bu məlumatı nazir Çavuşoğlu artıq təsdiqləyib.

**"Türkiyədə baş vermiş hərbi çevriliş cəhdindən əvvəl Ermənistanla münasibətlərin normallaşması prosesinə yenidən başlamaq imkanları Bakıda müzakirə olunub"** - "Haberturk" kanalına müsahibəsində Çavuşoğlu belə deyib. XİN başçısının sözlərinə görə, məsələ ilə bağlı Ermənistanla birbaşa müzakirələr olmayıb, ancaq müxtəlif beynəlxalq forumlar zamanı o, erməni həmkarı ilə danışıb. Nazir onu da deyib ki, Ankara Qarabağ məsələsində Azərbaycanın tərəfində çıxış edir və Bakının təklif etdiyi bütün həll variantlarını müdafiə edəcək.

***

**Məsələ ilə bağlı erməni siyasi şərhçilərindən biri - Naira Ayrumyan "Erməni-türk münasibətlərində həyəcanlı xəbərlər" başlıqlı məqaləsində yazır:** "Güman ki, Türkiyə Ermənistanla sərhədləri yalnız Rusiya və Azərbaycanla ortaq maraqlar kontekstində aça bilər. Bu kontekstə isə yəqin ki, Qarabağ məsələsi də daxildir. "Lavrov planı"na daxil olan ərazilərin Azərbaycana qaytarılması məsələsi də böyük ehtimalla, sərhədlərin acılama üçün əsas şərtdir - hansı ki, Bakı da buna razıdır. Bağlı qalan sərhədlər regionun dünyaya absorbsiyası yolunda əsas əngəldir. Qərb Qarabağ şərti olmadan sərhədlərin açılmasını tələb edir. Rusiya isə əksinə, ərazilərin qaytarılması kimi ön şərti yerinə yetirməkdə Ermənistana "kömək" təklif edir. Çavuşoğlu deyir ki, hələlik Ermənistanla danışıqlar aparmayıb, hərgah, öz həmkarı ilə qarşılaşıb və onunla salamlaşıb. Ancaq İrəvan öz xarici siyasət qərarları ilə bağlı hüququnu bütünlüklə Moskvaya veribsə, o zaman Çavuşoğlunun Ermənistanla danışıq aparması nəyə gərəkdir, onun elə Lavrovla danışması kifayətdir".

**Sonda erməni şərhçi hakim rejimə ünvanlı suallar qoyur:** "Ermənistan XİN aşağıdakı ekzistensional suallara cavab verməlidir: sərhədlərin aşılması ilə bağlı Türkiyə ilə danışıqlar aparılırmı və bu danışıqlar Qarabağla bağlı ön şərtlə nə dərəcədə əlaqəlidir? Türk-erməni danışıqlarında Rusiya və Azərbaycanın rolu nədən ibarətdir?"

***

Erməni təhlilçilərin də şərhlərindən göründüyü kimi, Türkiyə ilə sərhədlərin açılması məsələsinin gündəmə gəlməsi işğalçı ölkədə daxili həyəcanı, Sərkisyan rejiminə qarşı isə şübhələri artırıb. Bu da o deməkdir ki, ölkə yeni siyasi təlatüm ərəfəsindədir.

❑ **Analitik xidmət**

# Ermənistanla sərhəd bazarlığı

## Ərdoğan Putinlə görüşdə bu məsələdən danışacaqmı? **Elxan Şahinoğlu:** "Ankara bu məsələni İrəvanın "xozeyni" ilə müzakirəyə hazırlaşır"

**Türkiyə-Ermənistan sərhədlərinin açılacağı barədə yayılan xəbər Azərbaycanda ciddi narahatlığa səbəb olub. Bəzi müşahidəçilər hesab edir ki, Ankara son zamanlar ona qarşı çirkin oyun oynayan Qərb dairələrinə - çevriliş cəhdinin arxasında dayanan ABŞ-a və Türkiyəyə qarşı ultimativ dildə danışan Avropa İttifaqına cavab olaraq yaxın qonşuları ilə münasibətləri tənzimləməkdə, həmçinin Ermənistanla da gərginliyi aradan qaldırmaqda israrlıdır.**



Bu arada Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Moskva səfərində də məsələnin müzakirə oluna biləcəyi ehtimal edilir. Ərdoğan avqustun 9-da Rusiyaya səfər edəcək. Bu barədə baş nazirin köməkçisi Mehmet Şimşək bildirib. O, Ərdoğanın Sankt-Peterburqda Rusiya prezidenti ilə görüşünün planlaşdırıldığını deyib.

"Ermənistanla münasibətlərin normallaşmasına dair Türkiyənin mövqeyi bəllidir. Münasibətlərin normallaşmasının yolu Azərbaycan torpaqlarının işğalına son qoyulmasından keçir. Ondan sonra bunun hansı formada olacağına Azərbaycanla birlikdə qərar verərik". Bunu isə **Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşqun** APA-ya deyib: "Mövlud Çavuşoğlu Bakıda bir daha vurğuladı ki, Qarabağ məsələsi Azərbaycan üçün nə qədər önəmlidirsə, Türkiyə üçün o qədər önəmlidir. Türkiyə problemin Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı prinsipi çərçivəsində dərhal sülh yolu ilə həllində Azərbaycanla birlikdə hərəkət etməyə davam edəcək. Nazirimiz dedi ki, Azərbaycan hansı həll yolunu məqbul hesab edirsə, həmin həll yolu Türkiyə üçün də məqbuldur. Ermənistanla münasibətlərə gəlincə, nazirin bununla bağlı birbaşa açıqlamasının olduğu qənaətində deyiləm. Azərbaycan tərəfi hər zaman bəyan edir ki, Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlamaqla bölgədəki bütün əməkdaşlıq fəaliyyətlərindən özünü təcrid edir. Bu işğal sona çatdıqdan, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edildikdən sonra bölgədə Ermənistanın da daxil olacağı yeni layihələrə zəmin yarana bilər. Nazirimiz də, sadəcə, Azərbaycanın vurğuladığı bu konstruktiv düşüncəni təkrarlayıb".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, səfirin bu mövqedən çıxış etməsi gözləniləndir. Ekspert şübhə etmir ki, əslində sərhəd məsələsi ilə bağlı proses davam edir:** "Türkiyə prezidenti Binəli Yıldırımı baş nazir təyin etdikdən sonra ona tapşırıb ki, qonşularla münasibətləri mümkün qədər normallaşdırmağa çalışsın. Maraqlıdır ki, "qonşularla sıfır problem" ideyasının müəllifi Əhməd Davudoğlu olsa da, o, baş nazir olduğu dövrdə bunun əksi istiqamətində hərəkət etdi. Türkiyənin son 5-6 ildə Suriya, Misir, Rusiya və İsraillə münasibətləri korlandı. Əlbəttə, Davudoğlu bəlkə də belə olacağını istəməzdi, ancaq mövcud şərtlər və Ərdoğanın xarici siyasət məsələlərinə şəxsi prizmadan yanaşması vəziyyəti qəlizləşdirdi. Ərdoğan sonda bu siyasətin Türkiyə üçün yaxşı heç nə vəd etmədiyini anladı. Buna görə yeni baş nazir Binəli Yıldırım qollarını çırmalayaraq ilk gündən bir sıra ölkələrlə münasibətlərin normallaşması prosesinə start verdi. Eyni gündə həm İsrail, həm də Rusiya ilə münasibətlərin normallaşması istiqamətində mühüm addımlar atıldı. Misirlə də münasibətlərin normallaşmasına çalışılır. Ermənistanla münasibətlərin normallaşması da istisna deyil. Sadəcə, bu, Ankaranın təkbaşına verəcəyi qərar deyil. Əhməd Davudoğlu 2009-cu ildə Ermənistanla münasibətləri normallaşdırmaq üçün yanlış siyasət yürütdü. O, elə bilirdi ki, bu siyasət Azərbaycan hakimiyyətinin ciddi etirazına səbəb olmayacaq. Amma rəsmi Bakının buna reaksiyası da sərt oldu, hətta vəziyyət elə həddə çatdı ki, Azərbaycan-Türkiyə strateji müttəfiqliyi qopmaq üzrə idi. Ərdoğan vəziyyətin dramatikliyini anlayaraq Bakıya gəldi və Milli Məclisdə çıxışı zamanı qəti surətdə dedi ki, Azərbaycan torpaqlarının işğalına son qoyulmayana kimi Türkiyə Ermənistanla nə sərhədi açacaq, nə də İrəvanla diplomatik münasibətləri bərpa edəcək. Buna görə də Ankaranın 2009-cu ildəki yanlışını təkrarlayacağını düşünmürəm. Türkiyənin hazırkı xarici işlər naziri Azərbaycanı yaxşı tanıyır, bizim həssas nöqtələrimizə də bələddir. Ona görə də Çavuşoğlu Bakıdan xəbərsiz Ermənistanla sərhədin açılması və diplomatik münasibətlərin qurulmasına baş vurmayacaq. Ankara məsələyə kompleks yanaşır ki, bu Azərbaycanın da maraqlarına uyğundur. Yəni Ankara həm İrəvana, həm də Moskvaya belə bir mesaj göndərir ki, əgər Ermənistan ilkin şərt irəli sürmədən Dağlıq Qarabağ ətrafındakı rayonları boşaldarsa, Azərbaycan Dağlıq Qarabağ və Ermənistanla kommunikasiya xətlərini açmaqla yanaşı, Türkiyə də Ermənistanla sərhədin açılmasıyla diplomatik münasibətlərin bərpası prosesinə start verəcək. Məsələyə bu cür baxış hamının xeyrinədir. Bundan başda Azərbaycan olmaqla, Türkiyə, Rusiya, hətta Ermənistan da qazanacaq".

**Ancaq E.Şahinoğluna görə, Ermənistan hakimiyyəti indi elə bir vəziyyətdə deyil ki, Ankaranın bu təklifinə müsbət cavab versin:** "Ona görə də mənə elə gəlir ki, Ankara bu məsələni İrəvanın "xozeyni" Kremllə müzakirəyə hazırlaşır. Türkiyə hakimiyyəti FETÖ terror təşkilatının rəhbəri Fətullah Gülənin iadə edilməsini istəyir. ABŞ yaxın müddətdə çətin ki, Güləni Türkiyəyə qaytarsın. Belə olan halda Ankara ilə Kreml arasındakı yaxınlaşma daha da sürətlənəcək. Kreml özü də indiki vəziyyətdə Türkiyə ilə yaxınlaşmadan yanadır. Ona görə də əgər Kreml həm Türkiyə, həm də Azərbaycanla sıx yaxınlaşmanı arzulayırsa, mütləq halda İrəvana təsir edib Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması prosesini sürətləndirməlidir. Kreml bu addımı atarsa, Türkiyə və Azərbaycanın Avrasiya İqtisadi Birliyinə üzvlüyünün müzakirəsi də mümkün ola bilər. Seçim Rusiyanındır. Sadəcə, Kremlin məntiqə üstünlük verəcəyinə əmin deyiləm".

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 162 (6483) 27 iyul 2016



# "Əslində Türkiyədə baş verənlər qonşu ölkələrə bir xəbərdarlıqdır"

## Yevda Abramov: "Rusiyada prezidentlik müddəti 6 il oldu, nə oldu, dünya dağılmadı ki?"

**Türkiyə və İsrail arasındakı gərginliklərin geridə qalması Azərbaycanı da çətin seçim qarşısında qalmaqdan xilas etdi. Hər iki ölkə ilə yüksək münasibətləri olan rəsmi Bakı 7 il əvvəl pozulmuş münasibətlərin normallaşması üçün son zamanlaradək əlindən gələni etdi. Ancaq yaxşısı budur ki, heç zaman nə Ankara Təl-Əvivlə əlaqələrinə, nə də İsrail Türkiyə ilə yüksək səviyyəli münasibətlərinə görə Bakını qınamadı, əksinə, ölkəmizi əlaqələrin bərpasında körpü statusunda gördülər. Münasibətlərin bərpası üçün Azərbaycandakı yəhudi icması da öz tərəfindən çalışırdı. Yəhudi icmasının Azərbaycanın ictimai-siyasi həyatında oynadığı rol da yüksək qiymətləndirilir.**

*Elə bu günlərdə prezident İlham Əliyev Dağ Yəhudiləri İcmasının sədri Milix İlxananoviç Yevdayevi Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif etdi. Deputat, Azərbaycan-İsrail parlamentlərarası dostluq qrupunun sədri Yevda Abramov da Azərbaycanın ictimai-siyasi həyatında aktiv rol oynamaqla yanaşı, Türkiyə-İsrail münasibətlərinin bərpası üçün səylər göstərənlərdəndir. Müsahibə üçün zəng etdiyimiz zaman istirahətini hansı ölkədə keçirdiyini soruşduq. Məlum oldu ki, nə İsraildə, nə də Türkiyədədir:*

- Mən heç vaxt yay tətilində rayonumu tərk etmirəm, başqa yerə getmirəm. İndi də Qubadayam, yollar asfaltlanır, məktəblər tikilir, gedib baş çəkirəm, sonra da istirahət edirəm.

***- Yevda müəllim, rayonda istirahətinizi hansı məkanda keçirməyi xoşlayırsınız?***

- İaşə obyektlərinə getməyi o qədər də xoşlamıram. Arada Nabrana-dənizə gedirəm. Üzməyi o qədər də bacarmıram. Sadəcə olaraq, təbabət nöqteyi-nəzərindən gedirəm. Qum, bir də duzlu su. Əlimdən başqa heç nə gəlmir (gülür).

***- Xınalığa necə, gedirsinizmi?***

- Xınalıq gözəl yerdir, 3-4 dəfə olmuşam. Amma qan təzyiqim qalxır deyə, tez-tez gedə bilmirəm.

***- Yevda müəllim, sizin seçki dairəsində, İkinci Nügədi kəndində ömrünün ixtiyar çağında bir sənətkar yaşayır - əməkdar artist Məcnun Hacıbəyov. Təsadüfən gedib ona baş çəkməmisiniz ki?***

- Doğrusu yox, bu barədə sizdən eşidirəm. Gedib hökmən ona baş çəkərəm, durumu ilə maraqlanaram.

***- Türkiyə-İsrail münasibətlərinin normallaşması barədə nə deyə bilərsiniz?***

- Deputat həmkarım Asim Mollazadə ilə birlikdə bu məsələ ilə çoxdan məşğul idik. Hələ "Van minut" hadisəsindən sonra çalışırdıq ki, bu ölkələr arasında əlaqələr əvvəlki səviyyədə olsun, türk deputatları və Knessetin deputatları ilə də bu məsələni müzakirə etmişdik. Mən son dəfə - 2-3 ay əvvəl - İsrail prezidentinin yanında olanda dedim ki, cənab prezident, siz Azərbaycan, onun prezidenti haqqında çox gözəl sözlər deyirsiniz. Onu da bilin ki, mən həm İsrailin, həm də Azərbaycanın uğurlarından qürur duyuram. Amma bəzi məsələlərə görə çox nigaranam. Birincisi, hər dəfə burada "erməni soyqırımı" məsələsi parlamentdə qoyulanda mən Azərbaycanda özümü çox çətin vəziyyətdə hiss edirəm. İkincisi də Türkiyə ilə münasibətləri gec-tez müsbətə doğru dəyişdirməlisiniz. Türkiyə ilə münasibətləriniz pis olarsa, Azərbaycanla münasibətlərə də təsir edər, çünki biz bir millət, iki dövlətik. O da mənə dedi ki, sizə bir sirri aça bilərəm, elə mənim qəbulumda olduğunuz anda xaricdə bununla bağlı görüşlər gedir. O zaman bu xəbərə çox sevindim. Vətənə qayıdandan sonra öyrəndim ki, münasibətlərin yaxşılaşdırılması üçün xarici ölkələrdə görüşlər təşkil olunur. Daha sonra bu görüşlərin çox yüksək nəticəsi oldu, İsrail üzr istədi, "Mavi Mərmərə" gəmisində zərər çəkən insanların ailələrinə kompensasiya verilməsi barədə qərar qəbul olundu. Digər razılıqlar da var. Mən çox şadam ki, hazırkı spesifik dövrdə Türkiyə ilə İsrailin yaxınlaşması həm bölgə ölkələri üçün çox müsbət bir şərait yaratdı, həm də Azərbaycan dövlətinə əlavə imkanlar verdi. Çünki regionda belə güclü müttəfiq ölkələrin olması Azərbaycanın imicinin yüksəlməsi üçün mühüm rol oynayır. Bu münasibətlər Qarabağ probleminin həlli üçün də müsbət şərait yaradır. Çox şadam ki, Türkiyə-İsrail münasibətləri həmişə yüksək səviyyədə olub. O zaman İspaniyadan minlərlə yəhudinin xilas edilib Türkiyəyə gətirilməsində Osmanlı paşalarının böyük rolu olub. Ona görə də mən münasibətlərin yaxşılaşmasına çox sevinirəm.

***- Türkiyədə hərbi çevrilişə cəhd olaylarının Ankara-Təl-Əviv və Ankara-Moskva münasibətlərinin yaxşılaşmasından sonraya təsadüf etməsi barədə fərqli yanaşmalar var. Hesab olunur ki, terror hadisələri, çevriliş cəhdi bu münasibətlərin yaxşılaşmasında maraqlı olmayanlar tərəfindən idarə olunur. Razılaşırsınızmı?***

- Türkiyə sübut etdi ki, demokratiya ilə bağlı da ondan nümunə götürmək olar. 15 iyulda da xalq sübut etdi ki, Ərdoğanı yox, hakimiyyəti və Türkiyəni qoruya bildi. Əlbəttə, mən bilirəm ki, bu çevrilişin əsl baiskarı yalnız yüksək çinli türk zabitlər deyil. Bu çevrilişin arxasında Türkiyəni güclü bir dövlət kimi görmək istəməyən, Türkiyəni parçalamaq niyyəti olan və uzun müddət böyük dövlətlərin seyflərində gizlədilən layihələrin nəticəsidir. Amma mən onu da bilirəm ki, heç bir dövlətdə demokratik hakimiyyətin silahlı yolla devrilməyinə nə İsrail, nə də Azərbaycan razı olmaz. Ona görə də son hadisələr bəlkə də bu dostluq münasibətlərinin daha da təzləşdirilməsi və daha yüksək səviyyəyə çatdırılması üçün impuls rolunu oynaya bilər. Türkiyə tarixində hərbi çevrilişlər həddən çox olub. Mən bunu Türkiyə-Rusiya münasibətlərinin yaxınlaşmasına Ərdoğanın siyasətindən narazı olan qüvvələrin cavabı da saymıram. Əlbəttə, bu hadisə Türkiyə və Rusiya rəhbərliyinin daha sürətlə yaxınlaşmasına səbəb olacaq.

***- Baş verənlərin arxasında İsrailin yaxın müttəfiqi olan ABŞ-ın dayandığı barədə iddialar da səslənir. Bu barədə nə demək olar?***

- Amerikanın əbədi müttəfiqi yoxdur, əbədi maraqları var.

## "Amerikanın əbədi müttəfiqi yoxdur, əbədi maraqları var"

Mən deyə bilmərəm ki, İsrail ABŞ-la belə məsələlərdə müttəfiqdir. Sadəcə olaraq, İsrail və ABŞ arasında münasibətlər istidir. Onu da xatırladım ki, Obamanın prezidentliyinin ikinci dövründə bu iki ölkənin münasibətləri soyuqlaşıb, ABŞ və İsrailin arasında bir sıra prinsipial məsələlərlə bağlı fikir ayrılığı var. Dəfələrlə Netanyahu ilə Obama arasında narazılıqlar olub. Ona görə də mən müttəfiqlikdən danışa bilmərəm. Lakin bu məsələlərdə Türkiyə mətbuatı da sübut edir ki, ABŞ-ın tanınmış generallarının və Fətullah Gülənin tərəfdarlarının əli var. Mən oxuduğum mənbələrə əsaslanaraq deyirəm ki, bu plan hazırlanıb, məxfi şəkildə ABŞ-ın Əfqanıstanda vuruşmuş generalları orada yer alıb və belə bir hadisədə yalnız daxili qüvvələr yer almayıb, xarici qüvvələrin də təsiri var. Bütün bunlara baxmayaraq, bölgədə yeni manevrlər tələb olunur. Ölkə rəhbərliyi özlərinin xarici siyasət kursunda çox ciddi korrektələr etməlidir. Əslində Türkiyədə baş verənlər qonşu ölkələrə bir xəbərdarlıqdır. Ona görə də bölgə dövlətləri özlərinin ictimai-siyasi həyatında böyük dəyişikliklər etməlidir, ciddi islahatlara getməlidir. Hətta dövlət idarəetmə siyasətində müasir tələblərə cavab verə bilən, əhalinin normal yaşaması, hüquq və azadlıqlarının qorunması, xalqın hakimiyyətdə iştirak etməsi üçün təminatlar verilməlidir. Bu mənada bölgə ölkələri Türkiyədəki hadisələrdən böyük nümunə götürməlidir. Həmçinin Türkiyə də özünün siyasətində ciddi dəyişikliklər etməlidir. Daha çox Qərbə yönəlməlidir, Amerika ilə oturub-durmalıdır, yoxsa "yaxın qonşuluq hər şeydən əzizdir" siyasətinə üstünlük verməlidir? Türkiyə bu mənada seçim etməlidir.

***- Yaxın qonşularla "0" münasibətlər kontekstində Türkiyə-Ermənistan sərhədlərinin açılması realdırmı? Bu arada yenə də mövzu ortaya atılıb.***

- Normalda heç bir ölkə digər ölkədən özünü təcrid edə bilməz. Amma Türkiyə əvvəlki prinsipial mövqeyində durmalıdır! Ərdoğan Azərbaycan parlamentində demişdi ki, bu sərhədlər Qarabağa görə bağlanıb. Əgər Qarabağla bağlı müsbət addımlar, ölkə rəhbərləri arasında razılaşmalar və təminat varsa, mən sərhədlərin açılmasına razıyam. Qoy, Ermənistan Türkiyə ilə ictimai, iqtisadi əlaqələrdə olsun, nəinki Rusiya ilə. Bu, Azərbaycanın gələcək taleyi üçün də yaxşıdır. Qoy, Ermənistan Rusiyanın forpostu olmaqdan xilas olsun və iqtisadi bağlılığı böyük türk dövləti ilə olsun. Qarabağ məsələsi ilə bağlı addımlar da Azərbaycan siyasətinin uğurlu siyasəti ilə paralel atılmalıdır və 22 ildir gözlədiyimiz məsələlər real olaraq yerinə yetirilməli, bundan sonra Ermənistanla sərhədlərin açılmasına razılıq verilməlidir. Amma bu, olmayacaqsa, onda sərhədlərin açılmasına da "yox" deyirik. Əgər bizim torpaqlar mərhələli şəkildə azad olunacaqsa və Türkiyə Qarabağın azad olunması prosesinə qarışa bilərsə, o halda mən də sərhədlərin açılmasına tərəfdaram.

***- Yuxarıda dediniz ki, bölgə ölkələri də Türkiyədə baş verənlərdən nümunə götürməlidir. Azərbaycanda konstitusiya dəyişiklikləri ilə əlaqədar referendum keçiriləcək. Bu qərarla bağlı fikriniz necədir? Hesab etmək olarmı ki, bu, mövcud situasiyaya adekvat qərardır?***

- Mən referendumla bağlı verilmiş qərarı Türkiyədəki hadisələrlə əlaqələndirməzdim. Zaman-zaman parlamentdə konstitusiya məsələləri müzakirə edilib, 7 il bundan qabaq da təklif olunan dəyişikliklər referenduma çıxarıldı. Bu gün bütün dünyanın tələb etdiyi məsələlər, ortaya çıxan reallıqlar var. Hər bir ölkə zaman keçdikcə konstitusiyasını müasir dünyanın inkişaf tempinə uyğunlaşdırmalıdır. Məsələn, Rusiya dəyişiklik etdi, burda nə var ki? Rusiyada prezidentlik müddəti 6 il oldu, nə oldu, dünya dağılmadı ki? Ona görə də bir sıra hadisələr sübut etdi ki, xüsusilə müharibə vəziyyətində olan ölkələrdə bütün hakimiyyət qolları gücü bir əldə cəmləşməlidir. Mən demirəm ki, əbədi olsun. Amma çətin anlarda bu, çox mühüm rol oynayır. Yenə də deyirəm, Türkiyə təcrübəsi bunu göstərdi. Allaha şükür ki, bizim ölkəmizdə sabitlikdir, xalqımız prezidentə sədaqətlidir. Lakin dövlətin rəhbərliyi həmişə ayıq-sayıq olmalıdır. Ölkə konstitusiyası hər zaman xalqın hakimiyyətdə iştirakı üçün təminatlar yaratmalıdır. Çünki hakimiyyət bir insana aid deyil, hakimiyyət xalqındır. Ona görə konstitusiyada belə dəyişikliklər olmalıdır ki, xalq hakimiyyətdə iştirak etsin, onun güc mənbəyinə çevrilsin, həmişə seçdiyi insanın, azad seçki şəraitində seçdiyi dövlət rəhbərinin yanında olsun. Odur ki, cənab prezident konstitusiyaya dəyişiklikləri təklif edib, Konstitusiya Məhkəməsi müsbət rəy verib. Bundan sonra cənab prezident səlahiyyətindən istifadə edərək referendum tarixi barədə qərar verəcək və mən əminəm ki, xalq bu dəyişiklikləri bəyənəcək. Ümumilikdə bütün dünyada baş verən hadisələr sübut edir ki, hakimiyyətdə islahatlara getmək lazımdır.

❑ **Elşad PAŞASOY**



# Aktual doblabaca

Zamin HACI
zaminhaci@gmail.com

**Nardaran hadisələrinə görə tutulan, hazırda məhkəməsi gedən islamçı Taleh Bağırzadə dünyada ən sürətli kitab yarışmasına girsə Filip Parkeri uda bilər. Bu Parker ən çox kitab yazmış adam kimi tanınır - 200 min kitab yazıb, bəziləri hətta amazon.com-da satışa qoyulub. Məsələ ondadır ki, Parker kompüter proqramçısıdır, müəyyən alqoritm və proqram yazıb bir neçə kompüterə verir, kompüterlər də istənilən mövzuda kitab quraşdırırlar. Bəs Taleh bəy onu necə udacaq, söhbət nədən gedir? İzah edim.**

Ağır Cinayətlər Məhkəməsində T.Bağırzadəyə qarşı ittihamın içində bir kitabça var. Dövlət iddia edir ki, bunu o yazıbdır, Nardaranda yayıbdır, dövlət çevrilişinə, üsyana-filana çağırıbdır. Bağırzadə isə ittihamı rədd edir, kitabçanın tamamilə istintaqın quraması olmasını deyir. Bax, Parkerlə yarışma məqamı da burda ortaya çıxır: sən demə, kitabça 2015-ci ilin 26 noyabrında Nardaran hadisələrindən bəhs edir, ancaq elə istintaqın məntiqinə görə həmin gün də Bağırzadə tərəfindən Nardaranda yayılıbdır.

Necə ola bilər ki, bir adam eyni gündə həm hadisəni törətsin, həm bu hadisə haqda kitab yazıb yaysın? İstintaq ona şər atırmı? Qətiyyən elə fikrə düşməyək. Bizdə insan haqları çox möhkəm qorunur, hətta bəzi insanların haqları daha artıq qorunur, narazılıq edirlər ki, bu qədər qorumaq olmaz, bizə azadlıq verin. Sadəcə, mənim nəzərimcə Taleh Bağırzadə yüksək sürətlə kitab yazmaq qabiliyyətinə malikdir. Filip Parkerdən fərqli olaraq o, bunu kompüter proqramı olmadan edir, demək, yarışın qalibi də həmyerlimiz olacaqdır, daha bir zirvəyə üçrəngli bayrağımızı taxacağıq. Kağız-qələm verin, türmədə başqa kitablar da yazsın. İndi söz əlaqədar təşkilatlarındır. *(Bu, adətən yazının axırında olmalıdır, niyə gəldi bura girdi anlamadım. Əlaqədar təşkilatların günahıdır)*.

Yaradıcı şəxsiyyətlərimizə eşq olsun, onlardan bir sürüsü də Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinə toplaşıbdır. Dövlət büdcəsindən pul alıb klassikləri, çağdaş yazıçıları, elmi-kütləvi ədəbiyyatları, uzun sözün qısası, dünyada nə çıxsa dilimizə, daha düzgün yazsaq, Artur müəllimin şirin dilinə çevirirlər. *(Yanılmıramsa Səməd Vurğunda belə beyt var idi, deyirdi gecə-gündüz yatmadım, Puşkinin "Yevgeni Onegin" poemasını Molla Pənah Vaqifin şirin dilinə çevirdim)*. Zarafat edirəm, qorxmayın, NK yanında TM heç vaxt belə təxribatçı işlərə girişməz. Çünki kitab oxuyan, dünyadan xəbər tutan gənclər sabah dövlətçiliyimizə qarşı çıxarlar, polisdə işləmək, adam döymək kimi məsul, şərəfli, ictimai vəzifələrdən imtina edərlər. Bəs NK yanında TM nə işlə məşğuldur? Yazım bilin: Afaq Məsudun başçılıq elədiyi bu Avrasiya məkanındakı nadir bilik məbədi "Azərbaycan dilinin orfoqrafiya lüğəti" adlı kitabı araşdırmaqla məşğuldur. Onlarla əməkdaş aylardır oturub ancaq orfoqrafiya lüğətində pis söz axtarırlar. Tapırlar da! Özü də yüzlərlə! Misal üçün, bir də görürsən NK yanında TM açıqlama verdi: "Lüğətə salınan dızqax, dilvurma, diltutan sözləri dilimizdə yoxdur". Millət heyran qalır, deyirlər Allah atova rəhmət eləsin, nə yaxşı iş görürsən, davam elə. Bir ay keçir, Afaq müəllimənin idarəsi bu dəfə daha dəhşətli orfoqrafik səhvlər əldə edir: "Çöpükləmək, hafıldamaq, zırtıldamaq, pintişqulu, ənkəbudi-hellavar, cənguleyi-bərdavar, mızımquluyi-xəqut, dərbəndəyi-yaquz kimi sözləri Azərbaycan dilinin orfoqrafiya lüğətinə salanlara ar olsun!"

Doğrudan da dəhşətdir. Mən sizə deyim, bizim bəzi rayonlarımız elə bu orfoqrafiya lüğətinə görə alındı. Yaxşı yadımdadır, döyüşçü yoldaşlar oturub mübahisə edirdilər ki, Azərbaycan dilində lavaşqulaq sözü varmı. Biri deyirdi yoxdur, o sözün əsli doblabacadır, o biri deyirdi lüğətdə özüm oxumuşam, var, hələ dişqozu sözü də var. Nəticədə post yaddan çıxdı, ermənilər gumbadan bacadan düşdülər səngərə, biz də dızıxlıq edib dağılışdıq, o vaxtdan lat-lüt qalmışıq.

# Məşhur siyasi ekspert Qərbi Azərbaycana görə ittiham etdi

## Pol Qobl haqlıdırmı?

**"İslam təhdidini nəzərə alaraq, bir çox Qərb ölkələri postsovet hökumətlərində müsəlmanların insan haqlarının açıq-aşkar pozulmasına etiraz etməyə elə də meyl göstərmir. Əslində bu, başa düşüləndir. Çünki etiraz olarsa, bu, həmin ölkələrin daxili siyasətinə qarışmaq sayıla bilər. Amma mənəvi cəhətdən buna haqq qazandırmaq olmaz və nəticəsi pis ola bilər". Bu barədə məşhur siyasi analitik Pol Qobl sosial şəbəkədə yazdığı məqalədə bildirib.(contact.az).**



Pol Qobl

"Qərbin müsəlmanların insan haqları pozuntusuna susqunluğu ekstremistlərin işinə yarayır" adlı məqaləsində P.Qobl qeyd edib ki, hazırkı durumda Qərbdə kimsə müsəlmanların haqlarından danışsa, o, terrorizmi dəstəkləyən biri adlandırılmaq təhlükəsi ilə üzləşə bilər. Amma nəinki bu ikili standartlar mənəvi cəhətdən yanlışdır, həm də iki səbəbdən siyasi olaraq bu, qəbulolunmazdır: "Bu, hakimiyyətlərə öz vətəndaşlarının insan haqlarını "İslam ekstremisti" adı altında kobud şəkildə pozmalarına imkan verir. Hakimiyyətlər bu əməllərini "İslam ekstremistləri ilə mübarizə" adı altında maskalayırlar. Qərbin susqunluğu digər tərəfdən də real təhlükəli islam radikallarına əlavə imkanlar yaradır. Belə ki, onlar bundan öz xeyirlərinə istifadə edirlər. Onlar Qərbin susqunluğunu insan haqlarının qorunmasında müsəlmanlara qarşı ayrı-seçkilik kimi qələmə verərək digərlərini də öz sıralarına cəlb edirlər. İslam ekstremistləri ilə mübarizəni, həqiqətən dəstəyə, müdafiəyə ehtiyacı olanlardan ayırmaq gərəkdir".

Müəllif nümunə kimi Azərbaycandakı durumu göstərib.

**Siyasi analitik Natiq Miri isə hesab edir ki, Pol Qobl bu fikirlərində müəyyən dərəcədə haqlı olsa da, islamçıların hüquqlarının pozulması halları təkcə Qərbin bu cür hallara göz yummasından qaynaqlanmır. Hər bir toplum öncə özünə güvənməlidir. Bunun üçün toplumun özünüqoruma instinkti olmalıdır. Bu olmadıqda heç bir güc mərkəzi bu toplumu sadəcə ədalət naminə avtoritar qanunsuzluqlardan, repressiyalardan qoruyacaq deyil:** "Əgər bu xüsusda hansısa hərəkətlər varsa da, bu, artıq o güc mərkəzinin geosiyasi maraqlarına xidmət etdiyi təqdirdə mümkün olur. Ona görə də hər bir toplum ilk növbədə ayaqda dura bilməsi üçün özünün təbii və institutsional hüquqlarını qorumağı bacarmalı və bunun üçün immunitet formalaşdırmalıdır.

Qərb bu məsələdə həlledici amil deyil, yalnız yardımçı vasitədir. Ancaq buna rəğmən demokratik dünyanın insan hüquqlarının qorunması ilə bağlı prinsipial mövqe nümayiş etdirməsi avtoritar rejimlər üçün müəyyən mənada çəkindirici amil ola bilir və bunu danmaq olmaz".

**Ekspertin fikrincə, onu da anlamaq lazımdır ki, dünyada üzdə olmasa da səhnə arxasında bir konfessional savaş mövcuddur və bu, daha çox müsəlmanlara qarşı tətbiq olunur. Ona görə də müsəlman dünyasında baş verən nəinki elementar insan hüquqlarının tapdanmasına, hətta total olaraq insan qətliamlarına göz yumulur:** "Məhz bunun nəticəsidir ki, bu gün müsəlman dünyasına atılan şər bumeranqları qayıdıb Qərb dünyasının özünü vurur. Unutmaq lazım deyil ki, radikal islam qruplarının əksəriyyəti məhz Qərb mərkəzləri tərəfindən yaradılıb və idarə olunur. Və bütün bunlar Qərb mərkəzlərinin geosiyasi maraqlarına xidmət edir. Burada nəinki qanunsuz həbslər, heç 10 minlərlə müsəlman qətliamları çox rahatlıqla gözardı edilə bilir. Ona görə də yalnız xarici amillərin ədalətinə sığınanlar, bundan gözləntiləri olanlar bütün zamanlarda bunu görməyəcəklər. Bu o zaman mümkün olur ki, toplum özü daxildə güclü olur. Və daxildə toplum dirənişli, güclü olduqca xarici dəstək də gəlir. Eynən Ukraynada olduğu kimi. Bu da o deməkdir ki, toplum Pol Qoblun göstərdiyi Qərb mərhəmətindən asılı olmamalıdır. Əksinə, bütün proseslərdə əsas hərəkətverici və qərarverici tərəf rolunda özü çıxış etməlidir. Onda həm daxildəki idarəetmə rejimləri, həm də xarici güclər bununla hesablaşmalı olacaqlar".

❑ Etibar SEYİDAĞA

# Şeyxdən Dini Komitəyə "səlahiyyətli mənəm" mesajı

## **Şeyxülislam Hacı Allahşükür Paşazadə:** "Qafqaz Müsəlmanları İdarəsinin Nizamnaməsi var və bu sahədə bütün məsələlər bunlarla tənzimlənir"

**"Şükürlər olsun ki, Azərbaycanda dini durum sabitdir. Dini icmalar öz fəaliyyətlərini həyata keçirir, dövlətin qayğı və yardımı sayəsində ərsəyə gəlmiş yeni məscidlərdə, bərpa olunmuş və yenidən qurulmuş ibadətgahlarda dini vacibatlarını yerinə yetirir, qanunla təsbit olunmuş hüquqlarından yararlanır. Dindarlar dövlətin diqqətindən, dövlət başçımızın yürütdüyü siyasətdən, dini dəyərlərə olan özəl ehtiramından razıdırlar". Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə APA-ya müsahibəsində belə deyib.**



Şeyx deyib ki, dünyada baş verən hadisələr fonunda bəzi qüvvələr dinimizə qarşı məzhəb ayrı-seçkiliyi salmaq üçün hər cür təxribata əl atır. Ölkəmizdə milli, dini, məzhəb münasibətlərində problemin olmaması bəzi qüvvələri narahat edir: "Əlhəmdülillah, dini mərkəz olaraq, biz bu yöndə səylərin və mövcud təmayüllərin qarşısının alınmasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birlikdə ardıcıl iş aparırıq. Hər iki qurumun potensial imkanları səfərbər edilib. Dövlət Komitəsinin inzibati sahədə səlahiyyətləri, dini mərkəzin maarifləndirmə, dini kadrların hazırlığının daha da artırılması və s. tədbirləri sayəsində istənilən nəticəyə nail oluruq. Dövlətimizin bu sahədə siyasətini xüsusi qeyd etmək lazımdır, siyasi iradə mühüm rol oynayır. Bu, həm də dövlət-din münasibətlərinin yüksək səviyyəsinin nəticəsidir".

**QMİ sədri bir sıra regional məscidlərdə, xüsusilə şimal-qərb bölgəsində və Nardaranda dini icmanın qeydiyyata alınması istiqamətində iş aparıldığı bildirib:** "Qafqaz Müsəlmanları İdarəsi ilə Dini Komitənin ümumi məqsədi dini mühiti, ölkənin dini həyatını ən yüksək səviyyədə qurmaqdır - bu həm dindarların hüquqlarının təmini, həm onların öz vəzifələrini bilmələri istiqamətində, həm də dini icmaların qanuni fəaliyyətinin təmini yönündə işləri ehtiva edir. Biz hüquqi dövlətdə yaşayırıq, dini sahəni tənzimləyən «Dini etiqad azadlığı haqqında» Qanun mövcuddur, İslami dini icmaların tarixi dini mərkəzi olan Qafqaz Müsəlmanları İdarəsinin Nizamnaməsi var. Bu sahədə bütün məsələlər bunlarla tənzimlənir. İcmaların yaradılması, onların qeydiyyatdan keçməsi üçün mövcud tələblərə riayət olunmalıdır. Hər il bizim təqdimatla Dövlət Komitəsində onlarla icma ilkin və ya təkrar dövlət qeydiyyatından keçir. Bu sahədə heç bir problem yoxdur. Nardaranda da proses bu istiqamətdə öz axarı ilə gedir. Bizim oradakı səlahiyyətli nümayəndəmiz də fəaliyyətini davam etdirməkdədir. İcmalar qeydiyyatdan məscidlərdə keçir, yəni hər hansı məscid hüquqi ünvan olaraq göstərilir. Bundan sonra QMİ həmin məscidə din xadimi - axund, imam təyin edir. İcması olmayan ibadət məkanlarına da dini ayinlərin icrası üçün din xadimləri - axund, imam, mütəvəlli təyinatını həyata keçiririk. Dini kadrların seçiminə, təyinatına məsuliyyətlə yanaşırıq. Bəzi bölgələrdə seçim prosesi bir qədər vaxt aparırsa, bu, yalnız daha layiqli, daha səriştəli namizədin axtarışı ilə bağlıdır. İmam, axund həm təyinat aldığı bölgənin ehtiram bəslədiyi şəxs olmalı, dindarların etimadını qazanmalı, həm də dinimizi lazımi səviyyədə təbliğ etmək bacarığına malik olmalıdır".

**Türkiyədəki çevriliş cəhdindən sonra ABŞ hökuməti bu ölkədəki nüvə silahlarından narahatdır və artıq bu haqda təşvişli açıqlamalar verilməkdədir. Belə ki, ABŞ Türkiyədəki çevrilişə gizli dəstək verməkdə günahlandırılır. Qiyamdan sonra İncirlik bazasında saxlanılan nüvə başlıqlarının taleyi ciddi sual altındadır.**

# ABŞ "ya Güləni verin, ya nüvə başlıqlarını aparın" seçimi qarşısında qalarsa...

"Foreign Policy"də dərc olunan məqalədə müəllif Cefri Levis İncirlik bazasındakı silahların təhlükəsizlikdə olmadığını yazıb. Məqalə müəllifinin iddiasına görə, nüvə başlıqları İncirlik bazasında olsa belə, Türkiyə bundan istifadə edə bilməz: "ABŞ-a aid nüvə başlıqları yerin altında saxlanılır. ABŞ və NATO bu silahların qorunması üçün son illərdə 160 milyon dollar xərcləyib. Silahları əldə etmək istəyənlər təhlükəsizlik kodlarını mütləq bilməlidirlər. Bu mərhələni keçmək isə heç də asan deyil. Yəni silahlar ciddi qorunur. Həmçinin İncirlik bazasındakı nüvə başlıqlarından Türkiyə istifadə edə bilməz, çünki Türkiyənin belə təyyarələri yoxdur".

ABŞ-Türkiyə münasibətlərindəki gərginliyi artıran əsas məsələ Fətullah Güləndir. Məlum olduğu kimi, Türkiyə hökuməti ABŞ-la münasibətlərin normallaşmasının qarşılığında hərbi çevrilişə rəhbərlik etməkdə ittiham olunan Fətullah Gülənin Ankaraya verilməsini istəyir. Lakin ABŞ Fətullah Güləni verməkdə tələsmir. Təbii ki, nüvə başlıqlarının Türkiyədəki hərbi bazada olması ABŞ-ı seçim qarşısında qoya bilər; "ya Güləni verin, ya nüvə başlıqlarını aparın" kimi... Bəs görəsən, ABŞ administrasiyasi nəyi seçəcək, nüvə başlıqlarını, yoxsa Fətullah Güləni?

**"Yeni Müsavat"ın sualını cavablandıran politoloq, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirdi ki, etiraf olunmasa da, Türkiyədə İncirlik hərbi bazasında nüvə silahlarının olması ehtimalı böyükdür:** "Türkiyədə Amerikanın İncirlik hərbi bazasında nüvə silahlarının olub-olmadığı çox dar bir çərçivədə bilinir. Çoxları elə bilir ki, həqiqətən orada belə silahlar var. Ancaq heç kim etiraf etməz. Ötən əsrin 60-cı illərində də Karib böhranı yaşanmışdı. O zaman SSRİ gizli surətdə Kubada raketlər yerləşdirməyə çalışırdı. Lakin Amerika hökumətinin bundan xəbəri oldu və qarşısını aldı. Amerika SSRİ qarşısında tələb qoydu ki, Kubadan raketlərini geri çəksin, o zaman SSRİ-nin də tələbi bu oldu ki, Amerika da Türkiyədəki nüvə raketlərini yığışdırsın. O zaman Amerika buna razılaşmışdı və raketləri də yığışdırdı. Lakin görünür, sonradan İncirlik hərbi bazasında nüvə başlıqlarının qalmasına icazə verib. Çünki "soyuq müharibə" hələ bitməmişdi, ABŞ-la SSRİ arasında çox gərgin münasibətlər var idi. Ona görə də Türkiyədə nüvə başlıqlarının olması Amerikaya vacib idi. Türkiyənin özünə də bu lazım idi, çünki SSRİ-dən təhlükə gözləyirdi. İndi də Türkiyədə bəzi hakimiyyətə gələnlər Amerikaya tənqidlər yağdırırlar, elə Ərdoğanın özü də. Düzdür, etiraz etməsələr də özləri də bilirlər ki, Türkiyədə nüvə başlıqları var. Bu, iki dövlət arasında strateji əlaqələrdən irəli gəlir".

## Elxan Şahinoğlu: "ABŞ üçün ən yaxşı çıxış yolu bütün riskləri gözə alaraq..."


Elxan Şahinoğlu

**Politoloqun sözlərinə görə, Türkiyə ilə münasibətləri qorumaq üçün ABŞ-ın yeganə yolu Fətullah Güləni bu ölkəyə təslim etməkdir:** "Son zamanlar Suriya məsələsinə görə Türkiyə-Amerika münasibətlərində soyuqluq əmələ gəlib. Türkiyə həm də ondan narahatdır ki, ABŞ Suriyadakı silahlı kürd qruplaşmalarına dəstək verir. Həm də çevriliş cəhdi də münasibətlərdə soyuqluq yaratdı. Türkiyədə müəyyən qüvvələr düşünür ki, bu çevriliş məsələsində Amerikanın da əli var. Doğrusu, mən Amerikanın Türkiyədə çevrilişə dəstək verdiyini ehtimal etmirəm. Çünki çevriliş Türkiyədə vətəndaş müharibəsinə yol açacaqdı. Türkiyə Suriya və İraqa çevrilə bilərdi. Bu, Amerikanın nəyinə lazımdır? Amma iki məsələ var ki, bu, Türkiyədə Amerika ilə bağlı müzakirələrin səngiməyəcəyindən xəbər verir. Birincisi, Türkiyədə hərbi çevrilişi planlayan "FETO qruplaşması"nın başçısı Fətullah Gülən ABŞ-da, Pensilvaniya ştatında yaşayır, bu, şübhələrə əsas verir. İkincisi, Türkiyənin istəklərinə rəğmən ABŞ hökuməti Fətullah Güləni vermək istəmir. Bu iki səbəbə görə Amerikanın adı Türkiyədə hallandırılır. Hazırda ABŞ çox çətin seçim qarşısındadır. Mənə elə gəlir ki, onlar Fətullah Güləni qaytarmayacaq. Çünki Fətullah Gülənlə illərdir çox sıx münasibətləri var".

**E. Şahinoğlu vurğuladı ki, ABŞ Fətullah Güləni Türkiyəyə vermədikcə, özü də problemlər yaşayacaq:** "Birincisi, bölgənin əsas dövlətlərindən biri olan Türkiyə artıq bəzi qərarlar verərkən Amerika ilə məsləhətləşməyəcək. İkincisi, Türkiyə Rusiya ilə yaxınlaşa bilər. Artıq Türkiyə-ABŞ münasibətlərinin soyumasından Rusiya çox məharətlə istifadə etməyə başlayıb. Təsadüfi deyil ki, avqust ayının əvvəlləri üçün Putin Ərdoğanı Sankt-Peterburqa dəvət edib. Bir nəfərə görə ABŞ-ın Türkiyə kimi bir dövlətlə münasibətləri soyuya bilər və bölgədəki maraqlarına ziyan dəyə bilər.

Amerika təbii ki, Fətullah Güləni də qaytarmaq istəmir. Çünki o, çox sirlər bilir və bu sirləri Türkiyədə məhkəmədə aça bilər. Əsas məsələ odur ki, ABŞ Türkiyənin onun strateji tərəfdaşı olaraq qalmasını istəyirmi? Çünki əvvəllər ancaq Türkiyə hakimiyyəti Fətullah Güləni ittiham edirdisə, indi bütün Türkiyə siyasi partiyaları ittiham edir. Türkiyədə bütün cəmiyyət inanır ki, bu çevrilişin arxasında Fətullah Gülən və paralel yapısı dayanır. ABŞ üçün ən yaxşı çıxış yolu bütün riskləri gözə alaraq Fətullah Güləni Türkiyəyə təhvil verməkdir".

❑ **Nərgiz LİFTİYEVA**


Fətullah Gülən

# ABŞ-dan diplomatlarına "ailənizi Türkiyədən çıxarın" xəbərdarlığı

## Dövlət Departamentinin bəyanatı qardaş ölkədə terror kabusunun dolaşdığını düşünməyə əsas yaradır; 15 iyul çevrilişi ilə bağlı istintaq daha da dərinləşir; Kılıçdaroğlu da Gülənin ekstradisiyasını tələb etdi

**ABŞ Dövlət Departamenti İstanbul və Ankarada fəaliyyət göstərən ABŞ diplomatlarının ailə üzvlərini Türkiyəni tərk etməyə, habelə ölkənin cənub-şərq bölgəsinə səyahət etməməyə çağırıb.**

Musavat.com "İnterfaks" agentliyinə istinadən xəbər verir ki, Dövlət Departamentinin rəsmi saytında bu barədə deyilir: "Dövlət Departamenti bu hadisələrin *(baş tutmayan hərbi çevrilişin)* ölkənin təhlükəsizliyi ilə bağlı ümumi situasiyaya təsirini diqqətlə izləməkdə davam edir və ABŞ vətəndaşlarına Türkiyəni ziyarət etmək planlarını yenidən gözdən keçirməyi məsləhət görür".

"Dövlət Departamenti ABŞ vətəndaşlarını Türkiyədə terrorçu təşkilatlar tərəfindən gələ biləcək təhdidlər barədə məlumatlandırmaqda davam edəcək" - deyə departamentin məlumatında vurğulanır.

Xəbərdə ABŞ Dövlət Departamentinin bu qərarının Türkiyədə 90 günlük fövqəladə vəziyyət rejiminin elan edilməsindən sonra verildiyi bildirilir.




ABŞ-dan Türkiyə ilə bağlı bu qorxunc xəbərdarlıq daha çox terror gözləntiləri ilə bağlı ola bilər. Çünki müşahidələrə görə Türkiyədə çevriliş planı məsələsi artıq bitib. Ehtimal edilir ki, Türkiyədə hansısa maraqlı qüvvələr sabitliyi pozmaq üçün terrora cəhd edə bilərlər.

Bir məqamı da qeyd edək ki, Türkiyə aeroportundakı məhkəmə qarşısında hələ 20 gün qabaq ABŞ bu ölkədə terror ola biləcəyinə dair xəbərdarlıq etmişdi...

Bu arada Türkiyənin Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kamal Kılıçdaroğlu Fəthullah Gülənin ABŞ-dan ekstradisiyasını tələb edib.

"Anadolu" agentliyinin verdiyi məlumata görə, K.Kılıçdaroğlu qeyd edib ki, F.Güləni Türkiyədə mühakimə etmək lazımdır.

Onun sözlərinə görə, əgər F.Gülən özünü günahsız hesab edirsə, Türkiyəyə gəlməli və məhkəmə qarşısında günahsızlığını sübut etməlidir.

***

**"Türkiyədə hərbi çevrilişə cəhd edənlərə türk əsgəri demək günahdır". Axar.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, bunu Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalı söyləyib. Onun sözlərinə görə, bu şəxslər xaçlılarla ortaqdırlar və onların əllərində alətdirlər:** "Bu maşaları tutan əllər kirlidir, əzəli və əbədi düşmənlərdir. Fətullahçı terror təşkilatı ölkəni öz ağuşuna alıb. Hər yerə yerləşdiriliblər. Onlar illərdir din pərdəsi arxasında gizlənib ortaya çıxmaq üçün uyğun zaman gözləyiblər. Dinlərarası dialoq uydurmasının da həyata keçirilməsi əbəs yerə deyildi. Onlar 3-cü minillikdə Asiyanın xristianlaşdırılmasına xidmət edənlərdən olublar. Türk dövlətinin kritik nöqtələrinə yerləşdiriliblər. Bu, qalanı içdən fəth etmək planıdır. Türkiyə ilə hesabı olanlar Güləni nəyə vasitə kimi istifadə ediblər. Heç bir çevriliş bizi 15 iyul qədər sarsıtmayıb. Bu, bizə görə işğal təşəbbüsüdür".

Qeyd edək ki, Türkiyədə iyulun 15-dən 16-na keçən gecə dövlət çevrilişinə cəhd edilib. Hadisədə 246 nəfər ölüb, 2000-dən çox insan xəsarət alıb.

***

### Gülən ABŞ hakimiyyətinə səsləndi

Türkiyədə hərbi çevrilişə cəhddə əli olan Fətullah Gülən isə etiraf edib ki, həmişə Qərbi dəstəkləyib. "Trend"in verdiyi məlumata görə, bu barədə F.Gülənin "New York Times" qəzetinə verdiyi müsahibədə deyilir.

Onun sözlərinə görə, Qərbin, həmçinin ABŞ-ın mötədil İslama həmişə ehtiyacı olub. F.Gülən ABŞ hakimiyyətini onu Türkiyəyə ekstradisiya etməməyə çağırıb.

***

### İstanbulun sabiq valisi saxlanıldı

Türkiyədə hərbi çevrilişə cəhdlə əlaqədar İstanbulun sabiq valisi Hüseyn Avni Mutlu saxlanılıb. Bu barədə "TRT Haber" telekanalı məlumat verib. Onu evində axtarış aparıldıqdan sonra saxlayıblar.

Keçmiş vali Fətullah Güləni terror təşkilatına dəstək verməkdə ittiham edilir.

Onu da qeyd edək ki, Türkiyədə 15 iyul hərbi çevrilişi ilə bağlı kütləvi həbslər hələ də davam edir.

İyulun 23 və 24-də 42 jurnalistin həbs edilməsi haqqında məhkəmə qərar çıxarıb.

Həmin jurnalistlərdən məşhur yazar Nazlı Ilıcak iyulun 26-da Muğla vilayətinin Bodrum rayonunda həbs edilib.

Xatırladaq ki, Nazlı Ilıcak haqqında həbs qərarı ayın 25-də çıxmasına rəğmən polis kameralar vasitəsilə izinə düşdüyü jurnalisti qaldığı evdə və yaxtasında tapa bilməmişdi.

Hüquq-mühafizə orqanlarının əməkdaşları Nazlı Ilıcakı dünən Bodrum-Torba yol qovşağında avtomobillə gedərkən saxlayaraq həbs edib.

"Darbə" ilə bağlı aparılan istintaq isə getdikcə dərinləşir. Belə ki, 15 iyul dövlət çevrilişinə cəhddən sonra aparılan istintaq çərçivəsində Türkiyənin iki səfiri geri çağırılıb.

Xarici İşlər Nazirliyinin qərarı ilə TC-nin YUNESCO-dakı səfiri Gürcan Balık və Kanadadakı səfiri Tuncay Babalı vəzifədən azad ediliblər.

15 iyul hərbi çevrilişinə cəhdin aparıcı simalarından olan ordu generalı Akın Öztürklə bağlı da yeni faktlar ortaya çıxıb.

Axar.az xəbər verir ki, qiyamçı generalın qonşusu M.S. adlı şəxs Akın Öztürkün dəfələrlə hakim, prokuror və yüksək rütbəli zabitlərlə görüşlər keçirdiyini bildirib.

O, generalın 4 mərtəbəli evdə polis rəisləri ilə tez-tez görüşdüyünü və bu evdə əhəmiyyətli sənədlərin olacağını deyib.

Qonşusunun ifadəsindən sonra polis Akın Öztürkün NATO Komandanlığından 2 kilometr aralıda yerləşən evində axtarışlara başlayıb və məxfi sənədlər ələ keçirib...

Bir məqamı da nəzərə çatdıraq ki, çevriliş cəhdində iştirakla bağlı həbslər təkcə Türkiyədə aparılmır. Belə ki, Fətullahçı Terror Təşkilatı (FETÖ) ilə əlaqədə şübhəli bilinən iki türk general BƏƏ-nin Dubay şəhərində tutulub.

"Report"un "Anadolu" agentliyinə istinadən verdiyi məlumata görə, tutulanlar Türkiyənin Əfqanıstandakı silahlı qüvvələrinin komandanı, general Cahit Bəkir və Kabildəki Tədris və yardım şöbəsinin rəisi, general Şener Topuçdur.

Məlumata görə, generallar Türkiyədə baş verən dövlət çevrilişi cəhdindən sonra Dubayda gizlənmək qərarına gəliblər. Onlar iyulun 26-da Türkiyəyə gətirilib.

❑ **Hazırladı: M.MAHRIZLI**

YENİ MÜSAVAT
N 162 (6483) 27 iyul 2016



# 700 bal toplayan "monqol"

Samir SARI

**Mediada 700 bal toplayan gəncin açıqlaması dərc olunub. Gənc belə deyib: "Bu nəticəni əldə etmək üçün 2 il gecə-gündüz çalışdım. İmtahana hazırlaşdığım üçün televizor və sosial şəbəkələrdən uzaq qalmışdım".**

Bu açıqlamanın qarşısında nə demək olar? Demək olar ki, halal olsun bu oğlana, uğur düsturunun sirrini çözüb, anlayıb ki, televizorda gic-gic seriallara baxsa, hətta maraqlı idman yarışlarına, Avro-2016-ya, filana tamaşa etsə, sosial şəbəkələrdə həmyaşıdı olan qızlarla layklaşsa, mesajlaşsa, nəinki 700 bal, heç onun yarısını da toplaya bilməyəcək. Ona görə də 15 yaşındaykən bu yeniyetmə düzgün qərar qəbul edib, guşənişin olub və girib kitabların içinə, indi ordan 700 balla çıxıb və özünün, eləcə də nəsil-nəcabətinin seçdiyi universitetə qəbul olacaq.

Bəs bizim sosial şəbəkə fəallarının bu gəncin uğuruna reaksiyası necədir?

Biri yazıb ki, monqol şeydir. O biri yazıb ki, əzbərçidir. Bir başqası yazıb ki, televizora baxmamağın nə dəxli var. Uşağa kütbeyin belə deyənlər var.

İndi təsəvvür edin, 17 yaşlı bir gənc 125 sualın 125-nə də doğru cavab verib və ona kütbeyin, əzbərçi, monqol deyirlər.

Bunca ədalətsizlik olarmı, dostlar? Beş suala ard-arda cavab verəndə "Milyonçu" şousuna gedib milyon qazanmaq istəyirik, uşaq 3 saatın içində 125 suala cavab verib. Bundan ötrü 2 il əziyyət çəkib. Onun tay-tuşları iyun ayı boyunca ellikcə "Almaniya Fransaya uduzmamalıydı", "İtaliya bir qəpiklik oynamırdı", "İslandiya tarix yazdı", "Portuqaliya çempionluğa layiq deyildi" deyə həyat əhəmiyyətli müzakirələr aparanda bu uşaq gecə saat 4-ə, 5-ə qədər kitab-dəftərlə əlləşib ki, çox bal toplasın, "pilsuza düşsün", valideynlərinə yük olmasın. Ona "monqol" deməyə adamın dili necə dönə bilər?

Ayrıca monqollar qədim tarixi olan, eləcə də tarixi nailiyyətlər əldə etmiş bir xalqdır, onu kütbeyinlik etalonu elan etmək irqçilik, faşistlikdir. Bunu kim etsə də, biz etməməliyik. Çünki bəyənmədiyimiz monqollar bizdən fərqli olaraq dürüst seçki keçirir, parlament və hökumət qururlar. Hətta beş-altı il əvvəl yanacağın qiyməti, bizim pulla beş qəpik artmışdı deyə, yeddi monqol nazir bir ərizəylə istefa vermişdi ki, xalqın mənafeyinə zərər vuran qərarlar verən hökumətdə işləyə bilmərik. Biz hələ monqollara çataq, ondan sonra onları bəyənmərik. 3-4 gün öncə "Speys"ə işə götürülən və ertəsi gün işdən çıxarılan afrikalı qız barədə yazıda gedən "zənci" sözünə görə jurnalistləri "rasist" deyibən şişə taxırdılar, amma indi bütöv bir millətə təhqiramiz yarlıq yapışdırırlar. Ayıb deyilmi? Ayıbdır. Amma bu heç.

Gələk 700 bal toplamaq məsələsinə. Bizim dost-tanışların içində də övladı bu il abituriyent olanlar vardı. Onlardan biri oğlunun smartfonunu alıb, əvəzində adi telefon vermişdi ki, uşağın başı sosial şəbəkəyə, filana qarışmasın, başqa şeylərə aludə olub dərsdən yayınmasın. Alah tərəfi, o sanksiyanın xeyri oldu, uşaq yaxşı bal topladı. Demək, onun atası hələ altı ay bundan əvvəl smartfon məsələsində düzgün addım atıb. Yoxsa çətin olardı.

Bu qədər biliyi başa, beyinə yığmaq heç kəsə zarafat gəlməsin. Bundan ötrü Lenin deyən kimi etmək lazımdır: "Oxumaq, oxumaq, yenə də oxumaq". "Ata, bir az çıxım, gəzim, gəlib oxuyaram", "Ana, uşaqlarla dənizə gedirəm, bir az üzüb, gəlib, davam edərəm" deməklə və elə etməklə olmur bu işlər. Gərək onurğa sütununun qurtaracaq hissəsini stula qoyub oturasan və eyzən oxuyasan. Bundan ötrü adamda həvəs, hövsələ, aydın məqsəd, iti zəka olmalıdır. Bunlar yoxdursa, ta heç zad, dostlarına zəng elə, get çayxanaya, Qrizmanın Ronaldo və Messidən üstün olmağı barədə danış, "Poqbaya 100 milyon verənin ağlı yoxdur" deyə şərhlər ver.

Bizim məhəllədə repetitor yanına gedən uşaqlar vardı - qızlar, oğlanlar. Səhər saat 6-da onları müəllim yanına gedən, gecə saat 1-də müəllim yanından gələn görürdüm. Srağagün günorta yenə qarşıma çıxdılar, üzlərindən səadət yağırdı. Bəlli ki, hamısı kifayət qədər bal toplayıb və istədikləri ali məktəbə daxil olacaqlar. Bir cütlüyün arasında isə, deyəsən, incə, məhrəm duyğular-filan var. Bunlar daha şanslıdır, eşq ilə təhsili necə birləşdiriblərsə, hər ikisində müvəffəq olublar, həm alışıb-verişiblər, həm də eyni vaxtda tələbə olublar. Onlara halaldır, mütləq xoşbəxt olacaqlar.

O "monqol" adı qoyulan gəncdə isə bir ildən sonra saflıqdan əsər-əlamət qalmayacaq, bəlkə də gözü-başı qaynaşan biri olacaq. Amma keşkə o belə saf qalsaydı və elm dalınca gedib bir yerlərə çıxsaydı...

# Azərbaycanda 235 nəfər hara itib?

## Müzəffər Baxış: "5 il keçdikdən sonra itkin düşmüş şəxslər ölmüş elan edilir"

**Ötən il Azərbaycanda 652 nəfər itkin düşmüş şəxs tapılıb ki, onların da 100-ü 14-18 yaşadək uşaqlar olub. Dövlət Statistika Komitəsinin mətbuat xidmətindən "Trend"ə verilən məlumata görə, 2014-cü illə müqayisədə 14-18 yaşadək uşaqların itkin düşməsi halları 4,2 faiz azalıb. 2015-ci ildə ümumilikdə 887 nəfər itkin düşüb. Onların da 652 nəfəri tapılıb, 235 nəfər isə hazırda axtarışdadır.**

2015-ci ildə ümumilikdə itkin düşmüş 887 nəfərin 116-sı 14-18 yaşadək uşaq olub. Ötən il axtarışda olan 116 itkin uşağın 100-ü tapılıb.

Ümumiyyətlə, son vaxtlar xüsusən də uşaqların itməsi ilə bağlı xəbərlərin sayında artım müşahidə edilir. İnsanların itməsi ilə bağlı müxtəlif versiyalar səsləndirilir. Bu versiyaların arasında inanması çətin olan bir iddia da var- kosmosdan gələnlərin azərbaycanlıları oğurlaması. Təbii ki, bu nə qədər qeyri-real görünsə də, hər halda, bunu da düşünənlər var. Digər versiya isə insan alveri ilə məşğul olan cinayətkar şəbəkə ilə bağlıdır. Çox zaman bir sıra şəxslər yaxınlarının axtarışının ciddi aparılmadığından da şikayətlənirlər. Bəs əslində axtarış necə olmalıdır? Polis itən şəxsi neçə müddətdən sonra və necə axtarır?



**Hüquqşünas Müzəffər Baxış bu sahədə də ciddi problemlərin olduğunu dedi:** "Konkret olaraq kiminsə itkin düşməsi barədə yaxın qohumları ərizə ilə polis orqanlarına müraciət etməlidir. Polis orqanları bu məsələ ilə bağlı axtarış işi açmalı və axtarışlar həyata keçirməlidirlər. Axtarışlar zamanı polislər bir qayda olaraq belə ərizələr üzrə axtarış aparılandan sonra cinayət işinin başlanmasını rədd edirlər. Amma qanuna görə əgər itkin düşən şəxsin öldürülməsi ilə bağlı kifayət qədər şübhələr varsa, belə hallarda Cinayət Məcəlləsinin tələblərinə görə cinayət işi başlamalıdır. Bir qayda olaraq polis orqanları bu məlumatlarla bağlı cinayət işinin başlanmasını rədd edirlər. Çünki qəsdən adam öldürmə ilə cinayət işi başlamalıdırlar və çox zaman işlər açılmamış qalır. Sonra da polisin cinayətləri açma faizi aşağı düşür. Ona görə də onlar bir qayda olaraq cinayət işi başlamağı rədd edirlər. Formal olaraq ətraf rayonlara məktub yazırlar ki, filan tarixdə filan şəxs itkin düşüb. Əgər sizin rayonunuzda belə adama rast gəlsəniz, bizə məlumat verin. Belə bir formal proseduru həyata keçirirlər. Amma itkin düşmə ilə bağlı Mülki Məcəllənin tələblərinə görə itkin düşən şəxsin itkin düşməsindən 2 il keçəndən sonra onun yaxınları məhkəməyə müraciət edərək həmin şəxsin itkin düşməsi barədə məhkəmə qətnaməsinin çıxarılmasına nail ola bilərlər. Yəni məhkəmə burada araşdırma aparır, polisə və digər orqanlara sorğu göndərir, həmin şəxsin həqiqətən də itkin düşməsi barədə məlumatları toplayır və qətnamə çıxarır ki, konkret bu şəxs itkin düşmüş hesab ediləcək. Çünki onun bir sıra prosedurlarının həyata keçirilməsi üçün bəlli məhkəmə qətnaməsi tələb olunur. 5 il müddət keçdikdən sonra isə itkin düşmüş şəxslər ölmüş elan edilir və o prosedurlar məhkəmə tərəfindən həyata keçirilir".

**Hüquqşünas Azərbaycanda bütün sahələrdə olduğu kimi, itkin düşmə, ölmüş elan etmə ilə bağlı məsələlərdə də çox ciddi problemlər olduğunu bildirdi:** "Əslində itkin düşmüş şəxslərin, xüsusən də dağ yerində itkin düşənlərin bir də görürük ki, 10 ildən sonra meşədə meyiti tapılır. Bununla da müəyyən olunur ki, əslində o qəsdən öldürülüb. Amma vaxtilə bu barədə hüquq-mühafizə orqanlarının səhlənkarlığı ilə əlaqədar vaxtında cinayət işi başladılmayıb və əməliyyat-axtarış tədbirləri həyata keçirilməyib. Yaxud da dəfələrlə olub ki, kimlərsə yaxın qohumları tərəfindən qətlə yetirilib evin altında və yaxud da həyətdə basdırılıb. 20 ildən sonra müəyyən olunur ki, həmin şəxs əslində yaxın qohumları tərəfindən qətlə yetirilib. Yəni Azərbaycanın bütün sahələrində olduğu kimi, bu sahədə də çox ciddi nöqsanlar var. Bu da qanunların icrası ilə bağlı Azərbaycanda olan problemlərlə bağlıdır. Yuxarıda sadaladığım prosedur qaydalar hamıya aiddir. Uşaqların məsələsində daha həssas yanaşmaq lazımdır. Çünki son dövrlərdə insan alveri məqsədilə uşaqların oğurlanması və onların insan alverinin qurbanları kimi istifadə edilməsi daha çoxdur. Ona görə də əslində hüquq-mühafizə orqanları bu məsələyə çox ciddi yanaşmalıdır. Uşaqlar itən zamanı valideynin polis orqanına ərizəsindən sonra polis dərhal bu axtarışları həyata keçirməlidir. Çünki bu uşağın tapılmasının çox böyük əhəmiyyəti var. Tutaq ki, cinayətkar bir şəbəkə tərəfindən həmin uşaq oğurlanırsa, Azərbaycan ərazisindən kənara çıxarıla bilər. Ona görə də məlumat daxil olan kimi dərhal əməliyyat-axtarış fəaliyyətinə başlanılmalıdır".

❑ Günel MANAFLI

# MTN generalının apelyasiya məhkəməsi başladı

**İyulun 26-da Naxçıvan Apelyasiya Məhkəməsində Naxçıvan Muxtar Respublikasının həbsdə olan sabiq milli təhlükəsizlik naziri Vəli Ələsgərovun barəsində olan hökmdən verilmiş apelyasiya şikayətinə baxılıb. "Trend"in məlumatına görə, prosesdə şikayətin ilkin baxış mərhələsi keçirilib. V.Ələsgərovun vəkilləri sabiq nazirə bəraət verilməsini istəyiblər.**

Qeyd edək ki, Naxçıvan Hərbi Məhkəməsinin hökmü ilə V.Ələsgərov 14 il müddətinə azadlıqdan məhrum edilib. O, Cinayət Məcəlləsinin 179.3.2-ci (Mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə), 308.1-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar öz və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədi ilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda) və 309.1-ci (Vəzifə səlahiyyətlərini aşma, vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda) maddələri ilə ittiham olunub.



Vəli Ələsgərov

**Qarabağ danışıqlarında son vaxtlar özünü göstərməyə başlamış diplomatik fəallıq, telefon diplomatiyası faktiki surətdə təzədən pauza ilə əvəzlənməkdədir. Türkiyədəki çevriliş cəhdi olayından sonra yaranan durum, həmçinin işğalçı ölkədə cərəyan edən daxili çəkişmələr sülh danışıqlarını bir az da arxa plana itələyib.**






# Aprel döyüşlərinin siyasi nəticələri unudulur - təhlükə

## Həm Ermənistan, həm də vasitəçilərin köhnə mövqeyə qayıtması müharibə məsələsinə təzə aktuallıq qazandırıb; Azərbaycan yeni monitorinq mexanizminə yalnız bir halda razılıq verəcək...

Danışıqlar prosesində növbəti pauza dövrünün başlamasının bir əlaməti də ATƏT-in Minsk Qrupu həmsədrlərinin ənənəvi şablon bəyanatlar verməyə başlamasıdır. Təəssüf ki, bu bəyanatlarda da ən əvvəl təcavüzkar Ermənistana xoş gəlmək istəyi sezilir. Yəni qənaət hasil olur ki, vasitəçilər aprel döyüşlərindən sonra da məsələdə Azərbaycanın ziyanına olan ikili standart yanaşmasından imtina etməyiblər.

Buna son bariz sübut kimi onların təmas xəttində məhz erməni hərbçisi öldürüləndən sonra əl-ayağa düşməsini göstərmək olar. Xəbər verildiyi kimi, bir neçə gün öncə erməni əsgərinin ölümü ilə bağlı amerikalı diplomat Ceyms Uorlik həmsədrlərin adından xüsusi bəyanat yayaraq və bir qədər də sərt şəkildə, dolayısıyla isə Azərbaycana ünvanlı çağırış-xəbərdarlıq ediblər. **"Biz tərəflərdən atəşkəs rejiminə ciddi riayət edilməsini gözləyirik. Güc tətbiqinə istənilən qayıdış vasitəçilər və həmsədr ölkələr tərəfindən ciddi şəkildə pisləniləcək"** - bəyanatda deyilir.

İlk baxışda normal çağırışdır. Amma analoji çağırışı daha öncə təmas xəttində zabitimiz snayperlə şəhid ediləndə nədənsə görmədik. İkinci yandan **"Güc tətbiqinə istənilən qayıdış vasitəçilər və həmsədr ölkələr tərəfindən ciddi şəkildə pisləniləcək" nə deməkdir?** Aydındır ki, işğalçı Ermənistana yeni müharibə lazım deyil, ona görə ki, arzuladığından da artıq Azərbaycan torpaqlarını işğal edib. Deməli, xəbərdarlıq öz ərazilərini zor gücünə azad eləməli olacaq Bakıya ünvanlanıb.

Nəhayət, üçüncüsü, əgər vasitəçilər gerçəkdə də aprel döyüşlərinin daha geniş miqyasda təkrarlanmasını istəmirlərsə, bundan narahatdırsa, o zaman zəhmət çəkib tərəflərə bərabər gözlə baxmaq siyasətinə son qoysunlar, işğal rejimini pisləyib Ermənistanı işğalçı adlandırsınlar. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair məlum qətnamələri Ermənistanı işğalçı kimi damğalayıbsa, nədən həmsədrlər bu həqiqəti dilə gətirməkdən çəkinirlər?

Cavab əslində çoxdan aydındır. Ermənistanı işğalçı kimi tanısalar, ona işğalçı kimi də münasibət bəsləməli olacaqlar. Amma əksini müşahidə edirik. Gizli xristian təəssübkeşliyindən məharətlə yararlanan və illərdir böyük güclərin gizli-açıq himayəsinə sığınan işğalçı ölkə özünü üçüncü onillikdir ki, rahat, cəzasızlıq şəraitində hiss edir.

Sözsüz ki, ortaya atılan təkliflərdə separatçılar üçün öz müqəddəratını təyinetmə ideyası da həmin gizli-açıq təəssübkeşlik və himayənin təzahürü kimi meydana çıxıb. Bu üzdən Azərbaycan tərəfi haqlı olaraq artıq Minsk Qrupunun problemi ədalətli şəkildə həll edəcəyinə inanmır, Türkiyənin də qatıldığı yeni həll formatları axtarır.

***

**"Vasitəçilərin ikili standartlar nümayiş etdirməsi nədənsə həmişə erməni tərəfə sərf edəndə ortaya çıxır". Bu Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlikin tərəfləri atəşkəs rejiminə ciddi riayət etmələri barədə çağırışını şərh edərkən ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov bildirib.**

**Azərbaycanlı general haqlı olaraq Ermənistan tərəfinin danışıqlara, vasitəçilərin iştirakı ilə əldə olunmuş razılıqlara nümayişkaranə hörmətsizlik göstərdiyini bildirib:** "Düşmən tərəfi atəşkəs rejimini pozaraq hərbi qulluqçularımızı və mülki əhalini atəşə məruz qoyduqda Azərbaycan tərəfi əvvəllər də vasitəçilərə dəfələrlə müraciət edərək Ermənistanın bu hərəkətlərinə reaksiya verməyə və qarşısını almağa çağırıb. Təəssüflər olsun ki, həmsədrlər Ermənistana qarşı nəinki tədbirlər görməmiş, bizim bu çağırışlara biganə yanaşaraq, heç səslərini belə çıxarmayıblar. Lakin Ermənistan tərəfi öz törətdiyi təxribatlar ucbatından cəbhədə itkiyə məruz qalan kimi dərhal həmsədrlər əl-ayağa düşür, atəşkəs rejiminə ciddi əməl edilməsi barədə bəyanatlar verirlər. Ermənistana xoş gəlsin deyə, onun işğalçılıq siyasətini davam etdirdiyini bildikləri halda belə açıq-aydın ikili standartlar nümayiş etdirirlər".

Ehtiyatda olan general-leytenant onu da qeyd edib ki, əgər kimsə Azərbaycanın erməni tərəfinin təxribatlarına, atəşkəs rejiminin Ermənistan silahlı qüvvələri tərəfindən kobud şəkildə pozulmasına səssiz qalacağını düşünürsə, səhv edir.

***

Yeri gəlmişkən, amerikalı vasitəçi erməni KİV-ə son müsahibəsində bir daha təmas xəttində yeni monitorinq mexanizmlərinin tətbiqinin zəruri olduğunu qeyd eləmişdi. Yəni faktiki, erməni tərəfinin marağını ifadə eləmişdi. Çünki işğal rejimi dura-dura Bakının buna razılıq verməsi onun öz əl-qolunu bağlaması, təcavüzkara qarşı yeganə silahı olan hərbi vasitədən imtinası demək olardı.

O da təsadüfi deyil ki, rəsmi İrəvan da sülh danışıqlarında heç bir konkret addım atmadan, ərazilərin heç olmasa bir qismini boşaltmadan buna can atır. Ayrı sözlə, öncə monitorinq mexanizmi, atəşkəs rejimini möhkəmlətmək, sonra ərazilər məsələsi mövqeyindən çıxış edir ki, bu da elə həmsədrlərin mövqeyi ilə uzlaşır.

Ancaq Azərbaycan əlbəttə ki, buna getməyəcək. Ən azı ona görə ki, o, ərazilərin qaytarılacağı ümidi ilə 22 ildən çoxdur atəşkəs rejiminə əməl edib, gözləyib. Lakin nəticə olmayıb. İndi təzədən işğalçıya əlavə şans tanıyan, onda cəzasızlıq ovqatını gücləndirəcək bir mexanizmə razılıq vermək nəyi dəyişəcək ki?

Heç nəyi. Ona görə də Azərbaycan rəhbərliyi ən yüksək səviyyədə bəyan edib ki, yeni monitorinq mexanizmləri yalnız sülh prosesində konkret irəliləyişlə, Azərbaycan ərazilərinin boşaldılması ilə paralel şəkildə tətbiq oluna bilər. Hələ ki bu ədalətli mövqe yerində qalır.

Əfsuslar olsun ki, vasitəçilər tərəfindən bu, lazımınca dəyərləndirilmir. Beləcə, 4 günlük müharibənin siyasi nəticələri unudulmaqdadır. Demək, aprel olaylarının təkrarlanması, həm də daha böyük miqyasda təkrarlanması riski yerində qalır.

## "Azərbaycan ərazilərinin işğalına son qoyulmalıdır" - Bundestaq üzvü

**Qarabağ münaqişəsi ilə bağlı Avropa Azərbaycan Cəmiyyətinin (TEAS) sorğusuna cavab olaraq Almaniya Bundestaqının üzvü, parlamentdə Xristian-Sosialistlər İttifaqının (XSİ) regional fraksiyasının baş katibi Maks Straubinger açıqlama verib. Açıqlamada bildirilir:**



"Almaniya Parlamentində XSİ regional fraksiyası üçün tam aydındır ki, beynəlxalq hüquq və dövlətlərin ərazi bütövlüyünə hörmət şübhə altına alınmamalı və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edilməlidir. Şübhəsiz ki, beynəlxalq hüquqa zidd olan Azərbaycan ərazilərinin işğalına son qoyulmalı və məcburi köçkünlərə öz evlərinə geri qayıtmağa şərait yaradılmalıdır. Münaqişənin sülh yolu ilə həlli bütövlükdə regionun stabilləşdirilməsinə töhfə verəcək.

XSİ regional fraksiyası hesab edir ki, Almaniya hazırda ATƏT-in sədri qismində münaqişənin yenidən alovlanmasının qarşısını almaq və sülhə gətirəcək yolun tapılması üçün əlindən gələni etməyə məsuliyyət daşıyır. Ona görə də biz möhkəm atəşkəs, etimad quruculuğu tədbirləri və danışıqların yenidən başlanmasını istəyirik. Almaniya hökuməti də həmçinin bu hədəflərin həyata keçməsi üçün kampaniya aparır. Lakin Almaniya tədricən tərəflər arasındakı minimum qarşılıqlı inamın yaranmasına və orada yaşayan əhalinin gündəlik həyatının asanlaşdırılmasına çalışır. Bundan əlavə, Almaniya çalışır ki, ATƏT-in Minsk Qrupu danışıqlar prosesini yenidən canlandırsın və intensivləşdirsin. Məqsəd status-kvonu möhkəmləndirmək deyil, münaqişənin həlli prosesində tərəqqiyə nail olmaqdır. Bu ikitərəfli yanaşma XSİ regional fraksiyası tərəfindən dəstəklənir. Lakin qarşı tərəflərin rolu çox mühümdür: onlar münaqişədə istənilən gərginləşmədən imtina etməli və danışıqlar prosesini çətinləşdirən şərtlər qoymaqdan çəkinməlidirlər. Əks təqdirdə, real dialoqa nail olmaq mümkün olmayacaq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 162 (6483) 27 iyul 2016



# Cahangir Hacıyev yəhudilərin 13 milyon dollarını da “yeyib”

## İsrailin «BSD Crown» şirkəti Beynəlxalq Banka depozit kimi yerləşdirdiyi 13.6 milyon dolların cəmi 250 minini geri ala bilib; sabiq bankirin məhkəməsi ərəfəsi yeni qalmaqal üzə çıxdı

**İsrailin «BSD Crown» şirkəti Azərbaycan Beynəlxalq Bankına Cahangir Hacıyevin dövründə depozit kimi yerləşdirdiyi 13.6 milyon dolları geri ala bilmədiyini bəyan edib.**

Virtualaz.org xəbər verir ki, bu haqda şirkətin Londondan yaydığı press-relizdə bildirir. Şirkətin səhmləri London birjasında alınıb-satıldığına görə «BSD Crown» Azərbaycan bankında yerləşdirdiyi depozitin aqibəti ilə bağlı səhmdarlara məlumat verməyə borcludur.

Şirkətin baş icraçı direktoru Yossi Schneorson bildirir ki, 2015-ci il dekabrın 15-də Azərbaycan Beynəlxalq Bankında yerləşdirdiyi depozitin geri alınması üçün müraciət edilib. Azərbaycan Beynəlxalq Bankı təsdiq edib ki, şirkətin 13.6 milyon dollarlıq depozitini saxlayır. Lakin həmin pulların qaytarılmasına dair şirkətin müraciətinə cavab olaraq Beynəlxalq Bank bir qədər vaxt istəyib. Daha sonra Beynəlxalq Bank pulların 2017-ci ilin mayına qədər 12 aylıq müddət ərzində faizləri ilə birlikdə geri qaytarılmasını təklif edib. Razılaşmaya əsasən birinci ödəniş 500 min dollar olmalı idi.

“Beynəlxalq Bankın əsasən dövlət bankı olduğunu, Azərbaycanda ümumən likvidlik və valyuta məsələlərini nəzərə alaraq şirkət təklifi qəbul etməyə razılıq verib. Bununla belə, 2016-cı il iyulun 20-nə qədər Azərbaycan Beynəlxalq Bankı şirkətə cəmi 250 min dollar qaytarıb. Nəticədə şirkət əlavə olaraq bütün mümkün yollardan istifadə etməyi nəzərdən keçirir və Azərbaycan Beynəlxalq Bankının depoziti mümkün qədər tez geri qaytaracağını gözləyir”-baş icraçı direktor bildirir.

«BSD Crown» yüzlərlə adda ərzaq məhsullarının distributorluğunu həyata keçirən «Willi Food» şirkətinin səhmlərinin mülkiyyətçisidir.

«BSD Crown» Ltd özü İsrailin «BGİ investisiya» şirkətinin törəmə şirkətidir. Şirkətin nəzarət səhm paketi bu yaxınlara qədər Ukraynanın Odessa vilayətindən olan yəhudi oliqarx Aleksandr Qranovskiyə məxsus olub. Hazırda o, Ukraynada bizneslə məşğuldur.

Qeyd edək ki, avqustun 15-də Beynəlxalq Bankın İdarə Heyətinin keçmiş sədri Cahangir Hacıyev və daha bir neçə şəxsin məhkəməsi başlayacaq. İşə hakim Əfqan Hacıyevin sədrliyi ilə baxılacağı gözlənilir.

Cahangir Hacıyevdən başqa, Beynəlxalq Bankda müxtəlif vəzifələr tutmuş İlqar Abdullayev, Yusif Ələkbərov və bankın inzibati binalarının mühafizəsini həyata keçirən «Inter Security» MMC-nin baş direktoru İbrahim Hüseynovun də mühakimə olunacağı bildirilir.

Onlar Cinayət Məcəlləsinin 179.3.1, 179.3.2 (mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə - ağır nəticələrə səbəb olduqda), 313-cü (vəzifə saxtakarlığı) və başqa ağır maddələri ilə ittiham edilirlər.

Onlar ötən il həbs ediliblər.

Vəkillərdən Əfqan Məmmədov bir müddət öncə C. Hacıyevin konkret 42 milyon manat mənimsəməkdə ittiham olunduğunu açıqlamışdı. Vəkil həmçinin demişdi ki, C.Hacıyev mənimsədiyi iddia olunan vəsaitin əvəzində bankdakı 80 milyon manat məbləğində səhmlərindən imtina edib.

Üstəlik, C.Hacıyevin həyat yoldaşı haqqında da mənimsəmə iddiası ilə bağlı cinayət işi qaldırıldığı bildirilir. Ancaq Zamirə Hacıyevanın hazırda xaricdə olduğu deyilir.

Görünür, İsrailin «BSD Crown» şirkətinin Cahangir Hacıyevin dövründə depozit kimi yerləşdirdiyi 13.6 milyon dolların da hara xərclənməsi barədə sabiq banker məhkəmədə aydınlıq gətirə bilər. Mümkündür ki, bu mənimsəmə də C.Hacıyevin “ayağına yazılsın”.

❑ **“Yeni Müsavat”**

**Ölkədə bir gündə dörd bankın bağlanması bank sistemində yeni prosesin bağlanması kimi qiymətləndirilir. Maliyyə Bazarlarına Nəzarət Palatasının atdığı ilk addım birmənalı qarşılanmasa da, davamının olacağı gözlənilir. Həmçinin bildirilir ki, Mərkəzi Bankın bankların durumu ilə bağlı Palataya yanlış məlumat verməsi problemli bankların ömrünü bir qədər uzada bilib. Ancaq yekunda Palata sərt qərar verərək bankların lisenziyasını geri alıb.**

# Bankların birləşdirilməsi yenidən gündəmdə-yoxlamalar başladı

## Ekspertlər bildirirlər ki, banklar borclulara ciddi güzəştlər etməyə məcburdur

Ekspert Əkrəm Həsənov məsələ ilə bağlı bildirib ki, ilk baxışdan bankın bağlanması ona borcu olanın vəziyyətini dəyişməsə də, əslində bu, borclulara sərf edir: “Düzdür, borc olduğu kimi qalır və ödənilməlidir. Lakin reallıqda bankların bağlanması borclulara sərf edir və söhbət yalnız məsələnin mənəvi və psixoloji tərəfindən getmir. Əvvəla, ona görə ki, bağlanmayan banklar belə problemli kreditləri qaytarmaqda xeyli çətinlik çəkir. Çünki çoxsaylı və uzunmüddətli məhkəmə proseslərini aparmaq üçün resursları yoxdur. Bankın ləğvedicisinin resursu isə daha da azdır, kredit başqa banka ötürüldüyü halda isə həmin bankın işi artmış olacaq. Ümumiyyətlə, problemli kreditlərlə yeni şəxslər məşğul olmağa başlayanda xeyli vaxt itkisi və digər texniki problemlər yaranır, bəzən hətta bütün sənədləri də tapıb məhkəməyə təqdim edə bilmirlər”.




**Həmçinin ləğvedici Əmanətlərin Sığortalanması Fondudur. Fondun pulu yoxdur və bağlanmış bankların əmanətlərini qaytarmaq üçün Mərkəzi Bankdan kredit götürmək zorundadır. Həmin krediti tez qaytarmaq üçün bağlanmış bankların kreditlərini qısa müddət ərzində geri qaytarmaq istəyir. Bu isə borclulara fondla alver etmək imkanı, yəni ciddi güzəştlər tələb etmək şansı verir, yəni:** “Güzəşt et, krediti tez qaytarım, əks halda, məhkəmədə görüşərik”. Bankların bağlanması digər bankları da vadar edir ki, borclularla dil tapmağa, ciddi güzəştlər edib kreditləri tez qaytarmağa çalışsınlar ki, əmanət və digər öhdəliklərini icra edə bilsinlər və onları da bağlamasınlar. Çünki bundan sonra əmanətlərin çıxarılması prosesi daha da güclənəcək" deyə, ekspert qeyd edib. Onun sözlərinə görə, bütün borclular unikal şans əldə edib: “Bankların vaxtı çox azdır, buna görə də güzəştlərə getməyə məcburdular. Vətəndaşlara məsləhətim odur ki, banklardan ciddi güzəştlər tələb edin, əks halda, onlara məhkəmə proseslərindən çəkinmədiyinizi bildirin və bağlanmış bankların aqibətini xatırladın”.

**Ekspert Vüqar Bayramov isə qeyd edib ki, bağlanan banklarda müflisləşmə qərarından sonra əmanətlər üzrə faizin hesablanmasının dayandırılması, amma kreditlər üzrə faizin hesablanmasının davam etdirilməsi diqqəti çəkən məqamlardandır:** “Məsələn, bir şəxsin bağlanan 4 bankdan birində əmanəti, digərindən isə krediti var. Hər iki bank müflis elan edilib. Bu zaman bir bankda onun əmanətinə faiz hesablanması dayandırılır, amma digərində kreditinə faiz hesablanmaqda davam edir. Əmanətlərin Sığortalanması Fondunun mövcud qaydalarına əsasən əmanətlər üzrə faizlər sığorta hadisəsinin baş verdiyi günə qədər hesablanmış məbləğdə ödənilir. Sığorta hadisəsi baş verəndən sonra yaranan xərclərə isə fond məsul deyil. Amma vətəndaşın qorunan əmanətini geri alması bəzən bir neçə ay zaman tələb edir və həmin aylara faiz hesablanmır. Amma vətəndaş kredit faizlərini fasiləsiz banka ödəmək məcburiyyətindədir. Bu isə o deməkdir ki, vətəndaşın öhdəliyi ilə bankın öhdəliyi bir-birindən fərqləndirilir. Bank müflis olandan sonra əmanətinə hesablanmalı olan faizini ala bilməyən vətəndaş müflisləşməkdən sonra da kredit faizlərini banka ödəməyə davam edir. Fond tərəfindən qorunan əmanətlərə görə hesablanmış faizin sığorta hadisəsi baş verən günədək deyil, məhz əmanətçinin öz pulunu aldığı günədək hesablanmasına ehtiyac var. Digər tərəfdən, mövcud qaydalara əsasən, əmanətçiyə kompensasiya ərizənin verildiyi tarixdən etibarən 90 gün müddətində fond tərəfindən ödənilir. Eyni zamanda müstəsna hallarda fondun Himayəçilik Şurasının qərarı ilə kompensasiyanın ödənilməsi 90 günədək uzadıla bilər. Deməli, əmanətçi öz pulunu 6 aydan sonra da ala bilər. Əgər vətəndaşa əmanət 180 gündən sonra ödəniləcəksə o zaman bankın müflisləşməsindən keçən həmin müddətə faiz niyə hesablanmasın ki?”

**Deputat Vahid Əhmədov isə yenidən bankların birləşdirilməsi məsələsinə diqqət çəkib.** “Daha öncə də bu qədər bankın Azərbaycanın maliyyə bazarı üçün çoxluq təşkil etdiyini və onların konsolidasiyasının aparılması ilə daha iri bankların yaradılması təklifini irəli sürmüşdük. Belə olduqda həm nizamnamə kapitalı böyük, həm də kredit portfelinin likvidliyi normal səviyyədə olan iri banklar aşağı faizlərlə kredit verə biləcəklər” deyə, o, axar.az-a bildirib. **O, dörd bankın bağlanması qərarını şərh edərkən deyib ki, bankların bağlanması əmanətçilər üçün problem yarada bilər:** “Maliyyə Bazarlarına Nəzarət Palatası faktiki bankların monitorinqini aparmaqla onların real vəziyyətini müəyyən etdi. Nəticədə bir sıra bankların likvidliyi, kapitalları və kredit portfeli ilə bağlı problemlər üzə çıxdı və ölkədə daha 4 bank bağlandı. Depozitlərin əksəriyyəti sığortalansa da, bankların bağlanması əmanətçilər üçün problemlər yarada bilər. Bu qədər bank Azərbaycanın maliyyə bazarı üçün çoxluq təşkil etdiyindən, biz dəfələrlə onların konsolidasiyasının aparılması ilə daha iri bankların yaradılması təklifini irəli sürmüşdük. Belə olduqda həm nizamnamə kapitalı böyük, həm də kredit portfelinin likvidliyi normal səviyyədə olan iri banklar aşağı faizlərlə kredit verə biləcəklər”.

V.Əhmədov Azərbaycanda bank sektoru üzrə aparılan islahatlar prosesinin davamlı olacağını da bildirib: “Bir sıra banklarda da hazırda yoxlamalar gedir, görək, MBNP və hökumət orqanları hansı qərarları verəcəklər? Ümumiyyətlə, bank sistemində sağlamlaşdırmaya ehtiyac böyükdür, bankların vəziyyətində müəyyən problemlər var. Hazırda kreditlərin verilməsində məhdudiyyətlər var. Halbuki kreditlərin verilməsi ölkədə real sektorun inkişafında ciddi rol oynayır”.

**Deputat bir müddət öncə bağlanan banklarda kredit faizlərinin hesablanması ilə bağlı işıqlandırdığımız mövzuya bir daha qayıdaraq çox önəmli mesajlar verib:** “Bildiyiniz kimi, banklar bağlandıqda kredit faizləri davam edir, ancaq depozitlər üzrə faizlər saxlanılır. Bu, indiki qanunvericiliyə görə düzgün olsa və əmanətləri qaytarmaqdan ötrü edilsə də, hesab edirəm ki, bu məsələ ilə əlaqədar gələcəkdə qanunda müəyyən dəyişiklik edilə bilər. Çünki lisenziyası ləğv edilən banklar əmanətlərə verilən faizləri dərhal dayandırır, ancaq kreditə görə faiz hesablamağa davam edirlər. Bu problem hazırda diqqət mərkəzindədir və bununla bağlı çoxlu müraciətlər daxil olur”.

Qeyd edək ki, “Əmanətlərin sığortalanması haqqında” Qanuna uyğun olaraq, “Dekabank”, “Kredobank”, “Parabank” və “Zaminbank”ın qorunan əmanətçilərinə kompensasiyaların ödənilməsinə avqustun 1-dən başlanacaq. Xatırladaq ki, Maliyyə Bazarlarına Nəzarət Palatası Direktorlar Şurasının 21 iyul 2016-cı il tarixli qərarı ilə “Dekabank”, “Kredobank”, “Parabank” və “Zaminbank”a bank əməliyyatlarının aparılması üçün verilmiş lisenziyalar ləğv edilib.

❑ **Röya RƏFİYEVA**




# "Moody's"un iqtisadi vəziyyətə sıfır qiyməti: qərəz, yoxsa...

**Beynəlxalq "Moody's" agentliyi Azərbaycan iqtisadiyyatı üzrə proqnozu pisləşdirib. Agentlik iyunda verdiyi proqnoza yenidən baxaraq, real ÜDM-in artımını 1%-dən 2017-ci ildə 0%-ə qədər endirib. Məlumata görə, 2016-cı ildə agentlik ÜDM-in 0,7%-ə qədər azalacağını proqnozlaşdırır.**

Moody's maliyyə sektorunda vəziyyətin pisləşməsini, devalvasiyanın əhalinin alıcılıq qabiliyyətinə təsirini və ikirəqəmli inflyasiyanın artmasını nəzərə alaraq, ölkə iqtisadiyyatının inkişaf sürətinin azalmasına gətirib çıxara biləcək risklərin olduğunu qeyd edirdi. Azərbaycanın makroiqtisadi proqnozlarının pisləşməsi energetika bazarlarının qiymətləndirmələri və neft qiymətləri ilə bağlı ümidlərin azalması ilə əlaqədardır. Bundan başqa, "Moody's" Azərbaycanın maliyyə sisteminə təzyiqin artmasını, ödəmə balansının vəziyyətini, habelə milli valyutaya etibarın azalmasını və bank sisteminin dollarlaşmasını qeyd edib.

ÜDM-ə nisbətdə xarici borcun 2014-cü ildə 11,2%-dən ilin sonuna qədər 29,6%-ə qədər artacağı proqnozlaşdırılır.

"Moody's"un proqnozlarına nəzər salsaq, Azərbaycan hökumət rəsmilərinin açıqlamaları ilə ziddiyyət təşkil etdiyinin şahidi oluruq. Belə ki, rəsmilər inflyasiya olsa belə, bu il azərbaycanda iqtisad artım olacağını istisna etmir, beynəlxalq təşkilat isə qəti şəkildə neqativ proqnoz verməkdən çəkinmir. Bəs görəsən, hansı tərəf daha çox reallığa söykənir? Gerçəkdə ölkə iqtisadiyyatı ilə bağlı statistik göstəricilər necədir?

**"Yeni Müsavat"ın sualını cavablandıran iqtisadçı ekspert Vüqar Bayramov bildirdi ki, rəsmi statistikada da Azərbaycanda iqtisadi artım deyil, iqtisadi azalma olacağı qeyd olunur:** "2016-cı ilin 6 ayının yekunları da ümumdaxili məhsulda azalmanın olduğunu deyir. Dünya bazarında neftin qiymətinin aşağı düşməsi və birinci rübdə qeyri-neft sektorundakı azalmalar nəticə etibarilə 2016-cı ilin birinci yarısında Azərbaycanda ÜDM-də azalma ilə nəticələndi. Statistika Komitəsinin rəsmi məlumatına əsasən, Azərbaycanda iqtisadi artım 3,4 faiz azalıb, qeyri-neft sektorunda 6,1 faiz azalıb, inflyasiya səviyyəsi isə 10, 5 faiz müəyyənləşib. Diqqət yetirsək, rəsmi statistika heç də beynəlxalq təşkilatların təqdim etdiyi statistikadan fərqli deyil. Statistikanın özündə də azalmalar var və bu azalmalar da rəsmi rəqəmlərdə öz əksini tapır. 2016-cı ilin iqtisadi göstəricilərində azalmaların olacağı gözlənilən idi. Çünki neftin qiymətinin aşağı olduğu dövrdə qeyri-neft sektoru da yaxşı inkişaf etmir, alıcılıq qabiliyyəti aşağı düşür. İnşaat sektoru qeyri-neft sektorunun aparıcı sahələrindən biri idi. Lakin bu sektorda da 2016-cı ilin birinci yarısında kəskin azalmalar müşahidə olundu. İnşaat sektorundakı azalma nəticə etibarilə ÜDM-də azalmalara səbəb oldu. Bir sektorda kəskin azalma nəticə etibarilə digər sektorlara da təsir edir. Rəsmi statistikaya əsasən inşaat sektorunda bu il 33,6 faiz azalma qeydə alınıb. Bu da ÜDM-də azalma deməkdir".



**Vüqar Bayramov:** "Hesabatda göstərilən rəqəm neftin qiyməti ilə bağlı proqnozlara əsaslanıb"



**Vahid Əhmədov:** "Həmin proqnozların heç də hamısı düz olmur"

**İqtisadçı ekspert beynəlxalq agentliyin proqnozunun doğrulmasının neftin qiymətindən və ölkədə qeyri-neft sektorunda aparılan iqtisadi islahatların effektivliyindən asılı olduğunu bildirdi:** "Güman olunur ki, neftin dünya bazarındakı qiymətinin artmayacağı halda 2016-cı ilin ikinci yarısında da azalmalar olacaq. Çünki ixracatın 80 faizi neft sektorunun payına düşür və bu baxımdan neftin qiyməti əsas rol oynayır. "Moody's"un hesabatında göstərilən rəqəm birbaşa dünya bazarında neftin qiyməti ilə bağlı proqnozlara əsaslanıb. Neftin qiyməti indiki səviyyədə qalsa, Azərbaycan iqtisadiyyatında artım olmayacaq, lakin yüksələrsə ölkənin gəlirləri yüksələcək. Qeyri-neft sektorunda aparılan islahatların nəticəsini qısamüddətli dövrdə əldə etmək mümkün deyil. Bu sahədə aparılan islahatlar bir neçə ildən sonra öz nəticəsini göstərə bilər. Qısamüddətli dövrdə neftin qiyməti əsasdır, uzunmüddətli strateji dövr üçün isə islahatlar həyata keçirilməli və onların nəticələri hesablanmalıdır".

**Milli Məclisin iqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov da "Yeni Müsavat"a açıqlamasında hesabatda qeyd edilən rəqəmlərin müəyyən qədər doğru olduğunu, lakin iqtisadi artımın sıfıra düşməyəcəyini qeyd etdi:** "Beynəlxalq təşkilatlar tez-tez belə bəyanatlarla çıxış edirlər və bəzən də qərəzli mövqe tuturlar. Məlumdur ki, Azərbaycan iqtisadiyyatında müəyyən problemlər var. İqtisadi artımın yüksək səviyyədə olmasını gözləmək də düzgün olmazdı. Amma mən təxminən 1-2 faiz səviyyəsində iqtisadi artım gözləyirəm. Çünki kənd təsərrüfatı ilə əlaqədar müəyyən irəliləyişlər var. Digər sahələrdə də müəyyən işlər görülür. İlin axırında müəyyən artım ola bilər. İnflyasiya təbii ki, var. Çünki manatın devalvasiyası bu prosesin hələ müəyyən qədər davam edəcəyini göstərir. Ancaq ümumilikdə hökumət tərəfindən müəyyən işlər görülür. "Moody's" agentliyinin açıqlamasına gəlincə, onlar da müəyyən araşdırmalar aparır, proqnozlar verirlər. Həmin proqnozların heç də hamısı düz olmur, yanlış informasiyalar da olur. Lakin ümumi götürsək, Azərbaycan iqtisadiyyatında müəyyən problemlər var. O problemlərin həlli üçün islahatlar həyata keçirilməlidir, bir də bank sektoru sağlamlaşdırılmalıdır. Banklar normal kredit verməyə və sahibkarlığın inkişafında rol oynamağa başlamalıdırlar".

**Xarici borcun artmasına gəlincə, V. Əhmədov bildirdi ki, belə bir tendensiya var və hökumət bu artımın sürətlənməsinin qarşısını almalıdır:** "Belə bir problem var. Lakin biz xarici borcu çox ciddi problem hesab edirik. Elə ölkələr var ki, xarici borcu elə ümumdaxili məhsulunun həcminə bərabərdir. Çalışmaq lazımdır ki, borcun həcmi çox artmasın. Son illərdə Azərbaycanın xarici borcunun ÜDM-ə nisbəti 8 faizdən artıq olmayıb. Lakin hazırda xarici borcun həcmi artıb, ilin sonuna qədər yenidən arta bilər".

**Vahid Əhmədov onu da diqqətə çatdırdı ki, beynəlxalq agentliklərin bu cür hesabatları Azərbaycanın kredit reytinqinə mənfi təsir edir:** "Bu agentliklərin hesabatları ciddi şəkildə izlənir və nəzərə alınır. Bu baxımdan, Azərbaycanın kredit reytinqinin düşməsinə müəyyən qədər səbəb olacaq. Çünki istənilə maliyyə qurumları dövlətə kredit verəndə o reytinqləri nəzərə alırlar ki, o dövlətin maliyyə vəziyyəti necədir. Bunlar nəzərə alınır. Son vaxtlara qədər elə bir ciddi problem olmamışdı. Lakin ümumi dünyada gedən proseslər fonunda Azərbaycan iqtisadiyyatında da problemlər yaşanır. Bu proses MDB məkanında daha sürətlə gedir".

❑ Nərgiz LİFTİYEVA

# Ən effektli qrip dərmanı Azərbaycanda qadağan edildi




## Adil Qeybulla: "Xeyli dərman preparatlarının keyfiyyətsizliyi ilə üz-üzə qalmışıq"

**Səhiyyə Nazirliyi "Bioparoks" dərman vasitəsinin dövlət qeydiyyatını ləğv edib. Bu barədə Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən məlumat verilib. Bildirilib ki, Səhiyyə Nazirliyinin 23 iyun 2016-cı il tarixli 159-S nömrəli sərəncamı ilə Macarıstanın "EGİS Pharmaceutical PLC" şirkətinin istehsalı olan "Bioparox" adlı aerozol dərman vasitəsində (Qeydiyyat vəsiqəsi: DV № 15-00640) yüksək risk və ciddi allergik reaksiyaların aşkar olunması səbəbi ilə dərman vasitəsinin dövlət qeydiyyatı ləğv edilib.**

Biz də "Neftçilər" metrosu yaxınlığında yerləşən bir neçə aptekə baş çəkib satışda bu dərmanın olub-olmaması ilə maraqlandıq. Apteklərin çoxu bu dərmanın qadağan olunmasından xəbərsiz idi. Onlar "Bioparoks"ın gətirilmədiyini və ya qurtardığını deyirdilər.

**İlk baş çəkdiyimiz aptekdə əczaçı bu dərmanın çoxdandı gəlmədiyini dedi:** "Bu dərman çoxdandı ki, bazada yoxdur. Qadağan edilməyib. Sadəcə olaraq, deyəsən, daha istehsal edilmir. Zərərsiz bir dərmandır. Alıcıları da var idi. Qripə qarşıdır".

**Digər baş çəkdiyimiz aptekdə isə Vüqar Abbasov adlı əczaçı bizə həmin dərmanın olmadığını deyərək onu əvəz edən digər dərmanları təklif etdi:** ""Bioparox" dərmanı yoxdur, gətirməyiblər. Onu əvəz edən dərmanlar var. O dərmanın qiyməti 8 manat idi. O dərmanı çox adam alırdı. Elə indi də gəlib soruşurlar. Amma nədənsə artıq gətirmirlər".

**Aptekdə olarkən bir alıcı da gəlib "Bioparox"un olub olmaması ilə maraqlandı. O işlədiyi üçün o dərmandan daimi istifadə etdiyini deyirdi:** "Qrip kimiyəm. İşdə başımı aşağı salıb yazı yazanda bu dərman mənim burnumun axmasının qarşısını alır. Həm də qripimin başqasına keçmə ehtimalını azaldırdı".



Adil Qeybulla

Baş çəkdiyimiz digər apteklərdə də əczaçılar dərmanın satışının əslində qadağan olunduğunu bilməsələr belə, onun aptekdə yer almamasını qurtarması ilə əsaslandırır və yaxın günlərdə olacağını deyirdilər.

Maraqlıdır, çoxlarının istifadə etdiyi və bəyəndiyi bu dərman nəyə görə qadağan edilə bilər? Doğrudanmı bu dərman ciddi risk və allergik reaksiyaları olan bir dərmandır?

**Tibb elmləri doktoru, professor Adil Qeybulla xeyli dərman preparatlarının keyfiyyətsizliyi ilə üz-üzə qaldığımızı dedi:** "Bu dərmanın qadağan olunması barədə məlumatı oxumuşam. Amma burada dərmanın niyə qadağan olunması barədə əsaslar ortaya qoyulmayıb. Yəni paraçetamol əsaslı dərman preparatlarının dövriyyədən çıxarılması konkret bir faktla ola bilər ki, bu dərmanın kimyəvi tərkibi təmizlənməyib və yaxud da tərkibindəki dərman əlavəsi müəyyən toksidi təsir göstərir və sairə. Amma bu dərmanın ləğvi bunların heç biri ilə əsaslandırılmayıb. Yəqin ki, özlərinin əsasları var. Hesab edirəm ki, bu cür dərman maddələri dərman bazarında az deyil. Xeyli dərman preparatlarının keyfiyyətsizliyi ilə üzbəüz qalmışıq. Amma yəqin ki, bu məsələlərin üzərinə gediləcək və xeyli dərman preparatlarının dövriyyədən çıxarılıb keyfiyyətlərinin əvəz olunması istiqamətində iş aparılmalıdır. Azərbaycan ərazisində istifadə olunan dərman maddələrinin hər birinin icazəsi olmalıdır və bu, ictimailəşəndən sonra keyfiyyətsiz dərmanların bazara daxil olmasına imkan qalmır".

❑ Günel MANAFLI

Yeni Müsavat
N 162 (6483) 26 iyul 2016

# Qarpız zəhərlənməsi zamanı nə edək-həkim məsləhəti

## "Qarpız zəhərlənməsi zamanı bu toksidi maddə qanda sanki qanyaradıcı sistemə təsir edir"

**Son günlər qarpızdan zəhərlənmə hallarının sayı artıb. Hətta iyulun 25-də qarpızdan iki nəfər zəhərlənərək dünyasını dəyişib. Nizami Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, rayon sakini Marina Nəcmuddinova qarpızdan zəhərlənərək ölüb.**

Digər hadisə isə Binəqədi rayonunda qeydə alınıb. DİN-in saytının verdiyi məlumata görə, rayon ərazisində yaşayan azyaşlı Adil Həşimov qarpızdan zəhərlənmə ilə xəstəxanaya gətirilib və orada ölüb.

Qeyd edək ki, qarpız zəhərlənməsi qida zəhərlənmələri arasında ən təhlükəlisi sayılır və bunun fəsadları uzun müddət davam edir. Azərbaycanda elə bir adam olmaz ki o qarpızı sevməsin. Elə insanlar var ki, qarpız onların qida rasionunda hər gün yer alır. Bəzən qarpızların içinin qırmızı çıxmasına və necə deyərlər, "bal kimi" dadmasına baxmayaraq, qarpızı yedikdən bir müddət sonra zəhərlənmə baş verir ki, buna da səbəb qarpız yetişdirilərkən onun tərkibinə vurulan gübrələr və dərmanlardır. Bir sıra mütəxəssislər avqust ayının 10-15-nə kimi qarpız yeməyi məsləhət görmür. Qarpız alarkən onun zərərsiz olduğunu üzərinə baxarkən də təyin etmək mümkündür. Belə ki, təzə qarpız təmiz, bütöv, sağlam və öz növünə xas rəngdə olur. Yetişmiş qarpızın saplağı, yanındakı bığcığı quruyur, növə məxsus naxışı tam aydınlaşır. Yetişmiş qarpızlara barmaqla vurarkən "küp" səsi verir. Səthi parlaq olan qarpızları kəsərkən, adətən yetişmiş çıxır. Keyfiyyətli qarpız bütöv, zədəsiz və quru saplaqlı olmalıdır. Qarpızın üzərində sarı ləkələr çoxdursa, bu o deməkdir ki, qarpızın çiy çıxma ehtimalı yüksəkdir. Belə qarpızlar həm də şirin olmur. Ona görə də qarpız seçərkən bu məqamlara diqqət etmək lazımdır. Qarpızın tərkibində su, şəkər, azotlu maddələr, mineral maddələr və digər bir sıra vitaminlər var. İnsan orqanizmi üçün bir sıra müsbət təsirləri olan qarpız susuzluğu aradan qaldırır, bədənə soyuqluq və rütubət verir. Qarpız eyni zamanda həzmə yaxşı kömək edir, qanı durulaşdırır. Qarpız yeməklə öd ağrılarını azaldıb, qan təzyiqini tənzimləmək mümkündür. Qarpızın suyunu bal və zəncəfillə qarışdırıb içmək bəlğəmi kəsir. Tumu böyrək daşını salır. Qarpız qabığından şəkər, yaxud bal ilə bişirilmiş mürəbbə sinə ağrısı, mədə və həzm zəifliyini aradan qaldırır. Qarpızın növlərini formasına, ölçüsünə, görüntüsünə, qabığının qalınlığına görə fərqləndirmək mümkündür. Ən xırda ölçülü qarpızın diametri 15 sm-dən, tezyetişən və xırdameyvəlilərdə isə 12 sm-dən az olmamalıdır. Qalınqabıqlı qarpızlar daşınma və saxlanma üçün daha əlverişlidir. Qarpız qəbul olunan müvafiq sanitar qaydalara uyğun olaraq saxlanmalıdır. Ticarət şəbəkəsində, o cümlədən evdə qarpızı qapalı, arakəsməli yerlərdə bir sırada saplağı yuxarı olmaq şərti ilə saxlamaq lazımdır. Qarpızın yaxşı, keyfiyyətli qalması üçün onu 3-4?C temperaturda və 70-75 faiz nisbi rütubətdə saxlamaq lazımdır. Qarpızı bir neçə qat kağıza büküb çanta, yaxud torbada sərin yerdə 4 ay saxlamaq olar. Doğranmış qarpız dilimlərini üstü bağlanan plastik və polietilen qabda qablaşdırıb donduraraq mənfi 18?C temperaturda saxlamaq mümkündür.



Ümumiyyətlə qarpızın əsl vətəni Afrika hesab edilir. Hazırda 1200 növü olan qarpızın 300 növü məhz ABŞ-da yetişir. Hətta 1998-ci ildə "Ginnesin Rekordlar Kitabı"na düşən 119 kiloluq dünyanın ən böyük qarpızı da ABŞ-da yetişdirilib. Dünyada qarpız istehsalında lider olan Çindən sonra ikinci yerdə olan Türkiyə qarpız satışında ABŞ-dan geri qalır. Bununla yanaşı, ABŞ qarpız yetişdirmədə Çin, Türkiyə, İrandan sonra 4-cü yerdədir. Azərbaycanda isə qarpız əsasən Sabirabad, Saatlı, Abşeron və digər rayonlarda becərilir. Qarpız ən tez 75-80, ən gec isə 100-200 günə yetişir.

Qarpız zəhərlənməsi zamanı insanda qəfil halsızlıq, soyuq tər, təzyiqin qəfildən düşməsi kimi hallar müşahidə edilir. Bir sıra mütəxəssislər hətta qarpız zəhərlənməsi zamanı zərərçəkəndə bir sıra fəsadların qaldığını deyir.

Maraqlıdır, qarpız zəhərlənməsi baş verən zaman həkim gələnə qədər ilin tibbi yardım olaraq nə etmək lazımdır?

Tibb elmləri doktoru, professor Adil Qeybulla qarpız zəhərlənməsi zamanı zərərçəkənə çoxlu maye içirib onun qaytarmasını tənzimləmək lazım olduğunu dedi: "Bu toksid bir vəziyyətdir. Qan təzyiqinin aşağı düşməsi, soyuq tər basması, mədə bağırsaq pozuntusu, işləmə qusma kimi hallara rast gəlinir. Qarpız zəhərlənməsində qan göstəricilərinin enməsi müşahidə edilir. Məsələn, görürsünüz ki, qandakı leykosidlər, erkosidlər kəskin aşağı düşür. Qarpız zəhərlənməsi zamanı bu toksidi maddə qanda sanki qanyaradıcı sistemə təsir edir. Çünki hazırda qarpızların əksəriyyəti xüsusi gübrələrlə hazırlanır. Bunların da bəziləri toksid təsir göstərir və yaxud da içərisində qalaraq orqanizmə neqativ təsir göstərir. Qarpızın içərisindəkinin ağ zolaqlar gübrələrin, qarpızı böyütmək üçün istifadə olunan dərmanların yığıldığı yerdir. Daha sonra bitkilərin müxtəlif fito qarmonları var ki, bütün bunların hamısı bitkilərin tez böyüməsinə gətirib çıxarır. Hazırda qida vasitələrində tərəvəzin tez böyüməsi üçün bu fito qarmonlardan istifadə olunur. Bunların özləri də insan səhhətinə təsirsiz deyil. Ona görə də hesab edirəm ki, avqust ayında qarpızın yetişən, bostan vaxtıdır. Biz bunu sovet dövründən bilirik. Amma təəssüflər olsun ki, avqust ayında da qarpızın toksid təsirinə rast gəlinir. Zəhərlənən şəxs çoxlu maye içməlidir. Yaxşı olar ki, o qaytarsın. Daha sonra əgər təzyiq düşübsə, onu soyuq tər basıbsa, zərərçəkənin başı aşağı vəziyyətdə qalmasını tənzimləmək lazımdır ki, başına qan getsin və dərhal həkim çağırılmalıdır".

❑ **Günel MANAFLI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Elan**

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**
**Əlaqə telefonu: (070) 335-90-15.**

YENİ MÜSAVAT
N 162 (6483) 27 iyul 2016



# Ölkədə əksər qiymətlərin artımı gözlənilir - proqnoz

Ekspertlərə görə, təbii inhisar subyektlərinin idarəetmə prinsipləri dəyişməyincə, maliyyə durumunun düzəlməsi mümkünsüzdür...

**Suyun bahalaşmasından bir qədər sonra elektrik enerjisinin qiymətinin də qaldırılması cəmiyyətdə bahalaşma ajiotajı yaradıb. Ekspertlər növbəti bahalaşma gözləntilərindən narahatdırlar.**

**İqtisadçı ekspert Fikrət Yusifov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirdi ki, suyun və elektrik enerjisinin qiymətlərində son vaxtlar baş vermiş artımın digər qiymətlərə necə təsir edəcəyi bu gün hər kəsi düşündürür: "Həm də sual olunur ki, bəs bu məhsulların qiymətlərində artımın nə kimi iqtisadi əsasları var idi? İllərlə bu sahələrdə xidmət sferaları inkişaf edir, genişlənir, yeni güclər istifadəyə verilir, lakin xidmətin qiymətləri dəyişməz olaraq qalır. Sahənin inkişafı, onun genişləndirilməsi, yeni güclərin istifadəyə verilməsi, xidmət personalının sayının artması nəticə etibarı ilə xərclərin də artımına gətirib çıxarır. Bu xərcləri qarşılamağın yeganə yolu isə satılan məhsulun qiymətlərinin, tədricən artırmaqdan keçir. Bazar iqtisadiyyatı şəraitində hər hansı bir xidmət sahəsinin zərərlə işləməsi real deyil. Bu səbəbdən də həm su və həm də elektrik enerjisinin qiymətlərində müəyyən artım labüd idi. Bu iki xidmət növü üzrə qiymət artımının başqa məhsulların qiymətlərinə müəyyən təsiri mümkündür, lakin qiymətlərdə kəskin artımın olacağı real görünmür. Qiymətlərin artımının qarşısını almağın ən düzgün yolu isə bazarda məhsul bolluğunun yaradılmasından keçir".

**Ekspert Elşad Məmmədov isə musavat.com-a deyir ki, son artımlarla bağlı irəli sürülən arqumentlər əsassızdır:** "Son aylarda ölkə iqtisadiyyatında önəmli rola malik olan iki iri təbii inhisar sahəsinin - su və enerjiyə aid dövlət qurumlarının tarifləri artırması üçün irəli sürdüyü arqumentlər o qədər əsassız görünür ki, onların üzərində dayanmağa lüzum görmürəm. Çünki son illər ərzində dövlət tərəfindən bu qurumlara çox böyük maliyyə və təşkilati dəstək göstərilməsinə baxmayaraq, menecmentdəki ciddi nöqsanlar onların maliyyə vəziyyətini acınacaqlı hala salıb. Ümumiyyətlə, bir məqamı qeyd etməyi lazım bilirəm ki, təbii inhisar subyektlərinin tam əksəriyyəti sovet dönəmində dövlətin qüdrəti hesabına formalaşıb. Ancaq Sovet İttifaqında onların fəaliyyəti plan iqtisadiyyatının sərt nəzarət çərçivələri ilə tənzimlənirdi. Ona görə də onların maliyyə, idarəetmə siyasətində ciddi problemlər olmurdu. Ölkədə bazar iqtisadiyyatı sisteminə keçid isə artıq həmin nəzarət mexanizmlərini aradan qaldırıb. Belə şəraitdə, yəni həmin nəzarət mexanizmlərinin olmadığı şəraitdə, həmin müəssisə və ki, heç son tarif artımı da onların maliyyə durumunda köklü müsbət dəyişikliklərə səbəb olmayacaq. Daha vacib məqam isə ondan ibarətdir ki, bu təşkilatların investisiya portfelində ölkə iqtisadiyyatı üçün o qədər mənasız maddələr var ki, belə investisiya portfeli ilə heç bir tarif təşkilatların əvvəlki formatda qalması yolverilməzdir. Ən azından ona görə ki, bu həmin qurumların rəhbərlərinə dövlətin külli miqdarda vəsaitini lazım bildikləri istiqamətə yönəltmək imkanları verir. Nəticədə onlar bazarda həm hakim, həm inhisarçı-iştirakçı olurlar. Bu isə həm plan, həm də bazar iqtisadiyyatı fəlsəfəsinə tamamilə ziddir".

**Onun sözlərinə görə, hazırda dövlətə aid təbii inhisar subyektlərinin büdcə və digər daxili öhdəlikləri ilə yanaşı, böyük rəqəmlərdə ifadə olunan xarici borcları var:** "Bu baxımdan, milli valyutanın zəifləməsi fonunda təəssüflə qeyd etmək istəyirəm artımından iqtisadi effekt gözləmək olmaz. Bu müəssisələrin hətta kiçik filiallarının, ofislərinin, stansiyalarının xarici görünüşləri muzeyləri xatırladır. Bu qurumlar yaxşı olardı ki, vergi ödəyicilərinə, ölkə əhalisinə, parlamentə və hökumətə şəffaf hesabat versinlər ki, bu ofislərin təmirinə, saysız-hesabsız bahalı xidməti xarici avtomobillərə və digər lazımsız istiqamətlərə nə qədər dövlət vəsaiti xərclənib. Ona görə də təbii inhisar subyektlərinin idarəetmə prinsipləri dəyişməyincə, onların maliyyə durumunun düzəlməsi mümkünsüzdür".

**E.Məmmədov qeyd edib ki, bahalaşma digər sahələrdə də gözlənilir:** "Bahalaşmanın yaxın aylarda hansı digər sahələri əhatə edəcəyinə gəldikdə, təəssüflə qeyd etmək istəyirəm ki, istehlak məhsul və xidmətləri bazarının tam əksər hissəsinin formalaşmasında elektrik enerjisi və su önəmli xüsusi çəkiyə malikdir. Bu baxımdan, istehlak bazarına aid sahələrin əksər hissəsində qiymət artımı gözlənilir. Bundan başqa, manatın zəifləməsi, istehlak bazarının idxaldan asılılıq səviyyəsinin yuxarı olması, inhisarçılıq, bir çox sahələrdə, o cümlədən daxili istehsalın tam təşkil olunmaması səbəbindən hətta daxili istehsal məhsullarına qiymətlərin formalaşmasında idxalın önəmli dərəcədə mövcudluğu amilləri qiymət artımına səbəb olacağını proqnozlaşdırmağa əsas verir. Bundan əlavə, yuxarıda da qeyd etdiyim kimi, ölkədə fəaliyyət göstərən digər iri təbii inhisar subyektlərinin də maliyyə durumu ağırdır. Onların da xarici və daxili borcları o səviyyədədir ki, zənnimcə, yaxın gələcəkdə onların da təklif etdiyi məhsul və xidmətlərə görə qiymət və tariflərdə artım olacağını proqnozlaşdırmaq olar".

❑ **Röya RƏFİYEVA**

# Kürdəmirə gedən turistlərin sayı Qəbələyə gedənləri ötüb?

**Mamed Əliyev:** "Bölgələrimizdəki hotellərdə yer qalmayıb, hamısı tutulub"




**Azərbaycandakı daxili turizm insanların ən ağrılı yeridir. Minlərlə kilometr məsafə qət edib, tətil keçirmək istəməyənlər üçün ölkəmiz normal seçim kimi görünə bilər. Amma bu sahədəki xidmət və bəzi şərtlərdəki natamamlıq insanların üzünü döndərir. Bununla belə, ortada maraqlı statistik məlumatlar və təhlil var.**

**Tanınmış ekspert Rövşən Ağayev** facebook statusunda bu məsələyə yeni baxış gətirib. R.Ağayev yazıb ki, əgər idarəetmə effektiv və şəffaf deyilsə, hökumətlər dövri olaraq bir-birini əvəzləmirsə, korrupsiya əsas idarəetmə rıçaqıdırsa, iqtisadiyyatın təməl dayağı azad rəqabət yox, inhisarçılıqdısa, ən nəhəng sərmayələr belə iqtisadi inkişaf və rifah gətirməyəcək: "Statistika Komitəsinin ötən həftə turizmlə bağlı açıqladığı ən son illik hesabatda bəzi rəqəmlərə baxın, bu qənaəti mütləq təsdiqləyəcəksiniz. Böyük neft pulları ölkəyə daxil olandan ölkənin turizm sektoruna çox nəhəng sərmayələr yatırılıb. Xüsusilə də 2007-2013-cü illərdə Qusar, Qəbələ, Quba, Xaçmaz və Şəki rayonlarında, həmçinin Bakıda dəbdəbəli turizm infrastrukturu qurulub. Bunun müqabilində turizm sektorunda nə dəyişib? Turizmin ürəyi sayılan bir çox regionların turizm statistikası adamı dondurur. İstisna deyil ki, "gizli iqtisadiyyat"ın sehrli çubuğu öz işini görür. Əgər belədirsə, deməli, turizmə qoyulan milyardların ölkə iqtisadiyyatına faydası yoxdur və olmayacaq, ayrı-ayrı adamların cibinə işləyir. Yox, əgər bu rəqəmlər gerçəyə yaxındırsa, onda yenə də turizmin bir sektor kimi, ölkə iqtisadiyyatına faydasını gözləməyin mənası yoxdu. Konkret faktlara baxaq...

Hər kəsə məlumdur ki, Qəbələdə təkcə son 7-8 ildə 4-5 nəhəng mehmanxana yaradılıb, xizəksürmə ifrastrukturu qurulub. Amma statistika göstərir ki, bu rayonda mehmanxanalarda *(həmçinin mehmanxana tipli gecələmə yerlərində)* turistlərin sayı sürətlə artmaq əvəzinə, azalıb. Məsələn, 2010-cu ildə Qəbələdə belə məkanlarda qalanların sayı 24.3 min nəfər olmuşdusa, 2015-ci ildə 5.9 min nəfərə enib. Ən təəccüblüsü odur ki, 2015-ci ildə Qəbələdə mehmanxanaları seçən turistlərin içərisində 1 nəfər də olsun əcnəbi olmayıb. Nəticə isə belədir: Qəbələ kimi turizm rayonunda 2015-ci ildə mehmanxanaların *(həmçinin mehmanxana tipli yerlərin)* ümumi gəliri 383 min manat olub. Amma məsələn, turizm məkanı hesab edilməyən Kürdəmir rayonunda həmin müəssisələrin gəliri 1.3 milyon manata yaxın olub - yəni hökumətin ölkə turizminin qəlbi saydığı Qəbələdən az qala 4 dəfə çox.

Başqa bir fakt. Bu gün ölkənin regionlarındakı gecələmə hesabı ilə götürəndə mehmanxanaların mümkün potensialının təxminən 94-95 faizi istifadə edilmir. Həmin göstərici yalnız Naftalanda 45 faizə yaxındır. Bu isə çox güman ki, həmin ərazidə olan insanlar üçün spesifik, başqa yerdə əldə edə bilmədikləri müalicə imkanının olması ilə bağlıdır. Bu fakt həm də onu göstərir ki, Azərbaycanda istirahət və əyləncə turizminin potensialı müalicə turizminin potensialından çox-çox aşağıdır".

Ekspertlər isə hesab edir ki, rəqəmlər bütün hallarda reallığın göstəricisidir. Belə ki, Kürdəmirdə, xüsusən də onun ərazisində yerləşən məşhur "Bığ" restoranında yolüstü nahar, şam edənlər də turist kateqoriyasına daxil edilir. Məlum, sözügedən ərazi Bakı-Qazax magistral yolundakı məşhur məkanlardan sayılır və insanların orda ayaq saxlaması təbiidir. Bundan başqa, müalicə müəssisələrinə axışanlar da daxili turizm statistikasına daxil edilir. Son nəticədə isə ortaya çox qəribə rəqəmlər çıxır.

**"Fly Travel" turizm şirkətinin rəhbəri Mamed Əliyev isə son durumu belə təhlil etdi. Dedi ki, hazırda daxili turizmin inkişaf etmədiyini deyənlər yanılır. Belə ki, Azərbaycandakı hotellərin əksəriyyətində yer tapmaq mümkün deyil. Xüsusən də iyul ayının sonu, avqustun əvvəli üçün yerlər öncədən bron edilib:** "Məsələn, "Şamaxı Palace"də artıq yer yoxdur. Qubadakı məşhur hotellərdə də yer tapmaq çətindir. Şabranda yerləşən «Qala altı» istirahət mərkəzində yerlər doludur. Ona görə də daxili turizmin inkişaf etməməsi barədə deyilən fikirlərə qoşulmuram. Biz turistlərlə işləyirik və real mənzərəni görürük".

**Müsahibimiz Türkiyədə baş verən məlum çevriliş cəhdindən sonra Antalya, Bodrum, Quşadasında yerləşən istirahət mərkəzlərinə gedən azərbaycanlı turistlərin sayında hər hansı azalma müşahidə etməyib. Onun sözlərinə görə, yerli turistlər cəmi iki-üç günlük bir tərəddüd keçiriblər:** "Türkiyə böyük dövlətdir və orada təhlükəsizlik də ciddi qorunur. Üstəgəl, turizmin səviyyəsi də bizim turistləri hər zaman qane edir. Buna görə də seçimlərini hər zaman Türkiyə ilə bağlı edirlər. İndi də Türkiyəyə bilet, putyovka alanların sayında hər hansı azalma yoxdur. Əksinə, müraciət o qədər çoxdur ki, bilet və hotellərdə yer tapmaq mümkün deyil".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 162 (6483) 27 iyul 2016



## Bu restoranda qonaqlara yeməyi...unitazda verirlər

İndoneziyanın Semaranq şəhərində bir restoran öz müştərilərinə içki və yeməkləri unitazda təklif edib. Qonaqlar eyni zamanda restoranın unitaz formalı stullarında əyləşirlər. "Janban" adını daşıyan restoran İndoneziya dilindən "ayaqyolu" kimi tərcümə olunur. Restoranın ən populyar yeməyi isə ətli şorbadır ki, onu unitaz formalı iri qabda gətirir və boşqablara servis edirlər. Lenta.ru saytının xəbərinə görə, hələlik restoranda ancaq kiçik qruplar üçün stollar sifariş etmək mümkündür. Restoranın sahibi Budi Laksono daha öncə ölkənin səhiyyə sistemində çalışıb. Restoranın tematikası sayəsində o, üçüncü dünya ölkələrinə diqqəti cəlb etmək istəyib.



## İnsan başını canavar başı kimi satmaq istədi .... 1 milyona....

Türkiyənin Tokat şəhərində ilginc dələduzluq hadisəsi qeydə alınıb. 52 yaşındakı A.Y və 29 yaşındakı H.K. qəbiristanlıqdan qazıb çıxardıqları bir insan başı skeletini "tək gözlü canavarın başı" kimi sırımağa çalışıblar. Özü də 1 milyon dollara.

Daha çox xarici turistlər arasında bu təbliğatı aparan dələduzları isə polis peşəkar əməliyyat nəticəsində həbs edib. Belə ki, Tokat polisi alıcı qismində onlara müraciət edərək dələduzları iş başında yaxalayıb.

# Vertolyotu belinə taxdı və 20 metr gəzdirdi

Belarus güc ustası Kiril Şimko dünyanın ən böyük vertolyotu "Mİ-26"nı yerindən 20 metr uzağa hərəkət etdirə bilib. Şimko sözügedən nömrəni Minskin Lipki aerodromunda nümayiş etdirib. Həmin vaxt sözügedən məkanda aviasiya idmanı festivalı keçirilib. Kişi müstəqil şəkildə vertolyotu tros boyunca hərəkət etdirib. Həmin vaxt vertolyot onun bədəninə kəmər vasitəsilə birləşdirilmişdi. Xəbərdə qeyd olunur ki, vertolyotun çəkisi 28.2 tondur. Bundan başqa, sözügedən vertolyot "Bərk qoz" filminin çəkilişləri zamanı istifadə olunub. Xatırladaq ki, 2015-ci ilin sentyabrında Şimko bir neçə dəqiqə boyunca "YAK-52" təyyarəsini əlləri ilə saxlamağa nail olub. Bundan başqa, o, 150 tonluq təyyarəni, "T-34" tankını və "BelAz"ı, eyni zamanda 118 tonluq kranı hərəkət etdirməyə nail olub.



# Körpə öldü, 12 saat sonra dirildi

Argentinada hamı "möcüzə işığı" adlandırılan körpə haqqında danışır. Meyitxanada 12 saat qalandan sonra körpənin yaşadığı məlum olub. Paytaxt Buenos-Ayresdə ölü doğulduğu üçün morqa aparılan körpənin sağ qalması hamını təəccübləndirib.

Ailəsi uşağı Luz Milagros, yəni "möcüzə işığı" adlandırıb və doğulandan 5 ay sonra evinə aparıb. Möcüzə uşağın anası Analia Bouter və ata Fabian Veron yerli mətbuata açıqlamalarında deyiblər ki, üç fərqli xəstəxanada 5 ay keçirəndən sonra uşağın müalicəsinə evdə davam etməyə qərar veriblər.

Dünyaya gələndə sadəcə 780 qram olan kiçik körpə nəfəs alması üçün bir müddət xüsusi cihazlara bağlı yaşayacaq. Vaxtından üç ay əvvəl dünyaya gələn Luz ölü doğulduğu elan ediləndən sonra morqa aparılmışdı. Amma anası onu son dəfə görmək istədiyini deyərək tabutda qızına baxarkən onun nəfəs aldığını görmüşdü.





## Uzun müddət televizor qarşısında oturanlar ölür

Almaniyada hər il 20 min nəfərə yaxın şəxs çox uzun müddət televizor qarşısında oturduğu üçün dünyasını dəyişir. Ulm Universitetinin müəllimi, professor Manfred Spitzer deyib ki, bu, bütün dünyanı ağuşuna alan xəstəlikdir.

İnsanlar ətraf mühitdən qoparaq televizor qarşısında oturmaqla nəinki özlərinə, ətraflarına da ziyan verirlər. Bu şəxslərdə qidalanma pozğunluğu, yüksək təzyiq və şəkər xəstəliyi riski böyükdür. Maraqlıdır ki, ABŞ, Almaniya, Fransa kimi ölkələrdə televizor xəstələri üçün reabilitasiya mərkəzləri də açılıb. Həmin mərkəzlərdə xəstələr ironik bir müalicə üsulu ilə qarşı-qarşıya gəlir. Onları fasiləsiz olaraq televizor qarşısında oturdaraq televizora baxmaqdan iyrəndirirlər.




QOÇ - Müəyyən təsirlərə məruz qalacağınız gözlənilir. Bunun qarşısını almaq üçün riskli sövdələşmələrdən, məsuliyyətli işlərdən uzaq durmalısınız. Günün ikinci yarısını gəzintilərə həsr edin.

BUĞA - Olduqca təzadlı gündür. Ünsiyyətdə olduğunuz adamlar sizi çaşdıra bilər. Gələcək perspektivlərinizi reallaşdırmaq üçün müzakirələrə başlayın. Ulduzlar sizi müdafiə etməkdədir.

ƏKİZLƏR - İştirakçısı olduğunuz proseslərə ciddi yanaşsanız, gün ərzində nəzərdə tutduğunuz perspektivlərin əksəriyyətinə qovuşacaqsınız. Sağlıq durumunuza fikir verin, əsəblərinizi qoruyun.

XƏRÇƏNG - Hələ də böyük planlarınızın reallaşmaması daxili gərginliyinizi artıra bilər. Buna baxmayaraq, özünüzdə təmkin tapıb Ulu Yaradana ümid bəsləyin. Uzaq səfərə çıxmaq olar.

ŞİR - Sürprizlər yolunuzu gözləyir. Bu səbəbdən də bir yerdə durmamalısınız. Evə bir qədər gec getsəniz də olar. Əsas məsələ planlarınızı həyata keçirməkdir. Dostlarınızla soyuqlaşmayın.

QIZ - Daxili sabitliyinizi qoruyun. Əks təqdirdə müttəfiqləriniz sizdən uzaqlaşa bilər. Çalışın ki, hər bir davranışda səmimi və təbii olasınız. Yalan vədlər verməkdən uzaq olun.

TƏRƏZİ - Ulduzların düzümü maliyyə imkanlarınızın genişlənəcəyindən xəbər verir. Varlanmaq üçün xeyli şanslarınız var. Bu istiqamətdə hər bir mümkün variantdan yararlanın.

ƏQRƏB - Ünsiyyətdə olduğunuz bütün insanlarla davranışlarınızı səmimilik üzərində qurun. Yaxın günlərdə maddi problemlərinizin aradan qalxacağına nikbin yanaşın. İnsanlara inamla baxın.

OXATAN - Daha bir səmərəli gün yaşayacaqsınız. Astroloji göstəricilər hər hansı qarqaraçılığın mümkünlüyünü təkzib edir. Qərarlarınızda qəti olsanız, bəxtiniz də gətirəcək.

OĞLAQ - Səhər saatlarında müəyyən gərginliklə rastlaşsanız da, bunun neqativ nəticələri görünməyəcək. Təxminən saat 12-dən vəziyyətiniz düzələcək. Amma sağlamlığınızı da gözdən qoymayın.

SUTÖKƏN - İşlə bağlı müəyyən mübahisələriniz gözlənilsə də, bu, nəzərdə tutduğunuz planların reallaşmasına mane olmayacaq. Bu gün ailə-sevgi münasibətlərindəki passivliyi mütləq aradan qaldırın.

BALIQLAR - Etibar etdiyiniz bəzi şəxslər tərəfindən aldadıla bilərsiniz, ələlxüsus da yaxın ətrafınız tərəfindən. Belə məqamlarda soyuqqanlılıq nümayiş etdirməyiniz vacibdir. Bu gün qazanmaq ehtimalınız da var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ayaqlarını görən inana bilmir



Katia Page 36 yaşındadır və qısa müddət sonra evlənməyi planlaşdırır. Amma Pagenin ciddi bir sağlamlıq problemi var. Belə ki, onun ayaqlarının ətrafı orta hesabla 120-130 santimetrdir və bir çox gündəlik işlərini belə yerinə yetirə bilmir. Ayaqlarının alt qismində həddən artıq yağ yığılmasına səbəb olan xəstəlik əsasən gec müəyyən edilir. 7 yaşından bəri ayaq biləkləri və ayaqları qalınlaşmağa başlayıb. 20 yaşından etibarən isə xəstəliyi irəliləməyə başlayıb. Page indi 10 seanslıq, fərqli bir müalicəyə başlayacaq. Mütəxəssislərə görə, müalicə bir az daha geciksəydi, gənc qadın ölə bilərdi.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750